

Milli azadlıqdan şirin nemət yoxdur!



# Sülhlə bağlı yeni mərhələ...

Bax səh. 6

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

16 noyabr 2024-cü il, şənbə

№ 209 (6795)

Qiyməti 60 qəpik




## Azərbaycanın təşəbbüsləri və dəstəyi ilə...

Bax səh. 2




## Birlikdə təbiətin keşiyində

Bax səh. 3

## Kiçik ada dövlətlərinə Bakının böyük dəstəyi...

Bax səh. 3



Bax səh. 4

## YAP nümayəndə heyətinin Çinə səfəri davam edir

## Strateji tərəfdaşlığın COP29 zirvəsi

Bax səh. 5

## Fransa və Niderlanda çağırış!

Bax səh. 4

## CAREC-in Bakı Bəyannaməsi

Bax səh. 5

## “Troyka” ölkələri QHT-lərinin ilk birgə forumu

Bax səh. 6



## NATO necə maliyyələşəcək?

Bax səh. 7



## Bank-maliyyə sisteminin “yaşıl” yol xəritəsi

Bax səh. 6



# Təmaslar davam etdirilir...

Noyabrın 15-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, telefon danışığı əsnasında dövlət başçıları Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin bu ilin avqustunda Azərbaycana dövlət səfəri zamanı əldə edilmiş razılaşmaları, həmçinin Rusiyanın Baş naziri Mixail Mişustinin bu günlərdə Bakıya səfəri zamanı təmaslarını nəzərə alaraq, sənaye və nəqliyyat sahələrində qarşılıqlı faydalı layihələrin praktiki olaraq həyata keçirilməsi məsələlərini müzakirə ediblər.

Tərəflər Azərbaycan-Rusiya strateji tərəfdaşlıq və müttəfiqlik əlaqələrinin hərtərəfli inkişafının davam etdirilməsinə dair qarşılıqlı maraqlarını bir daha ifadə ediblər.

Müzakirə olunan məsələlərin icrası məqsədilə müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi razılaşdırılıb.

# Azərbaycanın təşəbbüsləri və dəstəyi ilə...

## COP29 mühüm çağırış və etiraflarla yadda qalır

**Dünya sürətlə yenilənən iqlim dəyişikliyi şəraitində karbon emissiyalarını azaltmaq, təbii resurslardan səmərəli istifadə etmək və bərpaolunan enerji mənbələrini inkişaf etdirmək üçün mühüm yaşıl çağırışlarla üzləşir. Bu çağırışların əsas məqsədlərinə diqqət yetirdikdə bir sıra istiqamətlər xüsusilə diqqəti cəlb edir. Məsələn, 2050-ci ilə qədər dünya ölkələrinin karbon neytral statusuna çatması hədəflənir. Bu məqsədə çatmaq üçün istixana qazlarının azaldılması və bərpa olunan enerjinin genişləndirilməsi əsas şərtlərdir. Eyni zamanda, iqlim dəyişikliyinə böyük təsir edən metan emissiyalarını azaltmaq üçün ciddi tədbirlər tələb olunur. Paralel olaraq inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında enerji keçidi prosesində balansın qorunması, daha az inkişaf etmiş ölkələrin bu keçiddən faydalanması da qlobal prioritetdir. Bu mənada görüləsi işlər çoxşaxəlidir - məsələn, bütün bu işlər aparılan zaman həm də ekosistemlərin və biomüxtəlifliyin qorunması prinsipinə riayət olunmalıdır. Meşə sahələrinin genişləndirilməsi, su hövzələrinin qorunması, okeanlarda plastik tullantıların azaldılması və biomüxtəlifliyin qorunması bu çağırışın vacib elementləridir. Bütün bunlar üçün isə iqtisadi amillə yanaşı, həm də siyasi iradə və maliyyə dəstəyi lazımdır - başqa sözlə, iqlim maliyyələşdirməsinin artırılması aparıcı amillərdən biri kimi önə çıxır. İnkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinə qarşı mübarizədə dəstəklənməsi üçün beynəlxalq iqlim maliyyələşdirməsi fondlarının gücləndirilməsi vacibdir.**

### COP29 çərçivəsində Aİ iqlim maliyyələşdirməsini artırdığını bəyan edir

Azərbaycanın ev sahibliyi etdiyi COP29 bu kimi qlobal yaşıl çağırışların reallaşmasına öz töhfəsini verir və qlobal müstəvidə iqlim tədbirlərinin tənzimilənməsində mühüm rol oynayır. Azərbaycan bu platformada Avropanın, Mərkəzi Asiyanın və digər regionların iqlim çağırışlarına cavab verməli olan, üzərinə öhdəlik götürmüş ölkələri bir araya gətirərək qlobal hədəflərin reallaşmasına şərait yaradır.

Vurğulandığı kimi, Azərbaycanın COP29 vasitəsilə verdiyi ən önəmli töhfələrdən biri karbon emissiyalarının azaldılması üzrə müzakirələri və əməkdaşlıqları gücləndirməkdir. COP29 platformasında dünya ölkələri karbon emissiyalarının azaldılması istiqamətində konkret hədəflər və tədbirlər planını yenidən təsdiqləyirlər. Xüsusilə, iqlim maliyyələşdirməsinin artırılması və resursların bölüşdürülməsi məsələsində əldə olunan uğurlar mühüm ştrixlərlə seçilir. İnkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinə qarşı mübarizəyə resurs çatışmazlığı səbəbindən tam cəlb olunmasındakı çətinliklər COP29 da müzakirə predmetinə çevrilir. COP29-da Azərbaycanın təşəbbüsü ilə inkişaf etmiş ölkələr tərəfindən inkişaf etməkdə olan ölkələr üçün iqlim maliyyələşdirməsinə xüsusi diqqət ayrıldı. Bu, maliyyələşmənin ədalətli bölüşdürülməsi və iqlim dəyişikliyinə həssas ölkələrin dəstəklənməsi mühüm əhəmiyyət kəsb edir. Yeri gəlmişkən, Avropa Birliyi Şurasının Prezidenti Şarl Mişelin çağırışı da bu mənada kifayət qədər diqqət çəkən olub. Bəşəriyyətin ilk dəfə belə bir iqlim böhranı ilə üzləşdiyini vurğulayan Ş. Mişel qeyd edib ki, bu böhrana görə məsuliyyəti də məhz bəşəriyyət daşıyır. Bəzi birliklər şübhəsiz ki, digərlərindən daha çox məsuliyyət daşıyır: “Avropa İttifaqı 31 milyard dollar iqlim maliyyələşdirməsinə hazırdır. Bu, bizim payımıza düşəndən çoxdur, hamını bizdən nümunə götürməyə çağırırıq”.

Beləliklə, Avropa İttifaqı üçün COP29 iqlim dəyişikliyi ilə mübarizə öhdəliklərinə ciddi və məsuliyyətli yanaşmanın təzahürü oldu - iqlim maliyyələşdirməsi Aİ-nin əsas prioritetlərindən biri kimi vurğulanır və bu sammitdə Aİ 31 milyard dollar vəsait ayıracağını bəyan edir. Bu rəqəm, inkişaf etməkdə olan ölkələrə iqlim keçidində yardım etmək üçün nəzərdə tutulmuş bir öhdəlikdir. Bəlli olduğu kimi, Aİ-də 2030-cu ilədək karbon emissiyalarının azaldılması üzrə “Yaşıl Müqavilə” adlı strategiya mövcuddur. COP29 platforması bu məqsədlərin reallaşması və iqlim dəyişikliyinə qarşı qlobal dəstəyin gücləndirilməsi üçün mühüm bir platforma kimi çıxış etdi.

### Kömür enerjisindən imtina edən ilk dövlət ...

Xatırladaq ki, Böyük Britaniyanın Baş naziri Keir Starmer də noyabrın 12-də Bakıda keçirilən COP29 Liderlər Sammitində çıxışı zamanı iqlim böhranının ön cəbhəsində olan ölkələrin yanında durmağa qərarlı olduqlarını qeyd etmişdi. Sabahın imkanlarını dəyərləndirmək niyyətini önə çəkən Starmer bildirib ki, Böyük Britaniyanın NDC-si 2035-ci ilədək bütün istixana qazları emissiyalarını 81 faiz azaltmaqdır: “Hazırda iqlim dəyişikliyi ilə bağlı atılan addımlar iqtisadi inkişaf yoludur. Baş nazir əlavə edib ki, sentyabrın sonunda Böyük Britaniyanın kömürlə işləyən sonuncu elektrik stansiyası bağlanıb və beləliklə, ölkə G7 iqtisadiyyatları arasında kömür enerjisindən imtina edən ilk dövlət olub. O deyib ki, bu COP28-də fosil yanacaqlardan keçid barədə beynəlxalq razılaşma və Böyük Britaniyanın 2030-cu ilə qədər təmiz enerji təmin edən ilk böyük iqtisadiyyat olmaq məqsədinə uyğundur”.

Göründüyü kimi, COP29 çərçivəsində Böyük Britaniya istixana qazlarını azaltma hədəfini gücləndirmək üçün yeni tədbirləri də müzakirəyə çıxarır. COP29 Böyük Britaniyanın beynəlxalq miqyasda tanınması və iqlim dəyişikliyi ilə mübarizədə nümunəvi addımların digər ölkələr üçün örnək göstərilməsi baxımından əhəmiyyətli bir platforma kimi yadda qalır.

COP29 ABŞ üçün də mühüm yeniliklə müşayiət olundu - ABŞ-da ilk dəfə olaraq böyük neft və qaz şirkətləri metan qazı buraxdıqları üçün ödəniş ödəməyə məcbur olacaqlar. Bu qərar, iqlim dəyişikliyi ilə mübarizə istiqamətində mühüm bir addım hesab olunur və ABŞ-ın iqlim dəyişiklikləri ilə bağlı öhdəliklərinə güclü bir istiqamətdir. COP29-un bu yeniliyin həyata keçirilməsində rolu böyükdür, çünki bu platformada ABŞ iqlim siyasətində konkret addımlar atma öhdəliyini yenidən təsdiqlədi. ABŞ Prezidentinin İqlim məsələləri üzrə müşaviri Con Podesta COP29-da çıxış edərkən qarşıdakı dövrdə karbon qazı emissiyalarının tənzimlənməsi yolunda fəaliyyətin davamlı olacağına ümid etdiyini vurğulayıb: “Son dörd ildə ABŞ iqtisadiyyatında karbon qazı emissiyalarının azaldılması istiqamətində bir sıra irəliləyişlərə nail olunub. ABŞ-da ilk dəfə olaraq böyük neft və qaz hasilatçıları buraxdıqları metan üçün ödəniş etməli olacaqlar”.

### Xəsislik Avropanın ictimai rifahıdır...

Bu tədbir kiçik ada dövlətləri və ya inkişaf etməkdə olan zəif ölkələrin çağırış mesajları ilə yanaşı, digər ölkələr üçün də mühüm platforma rolunu oynayır. Hətta Avropanın bəzi dövlətləri bu imkandan istifadə edərək öz fikirlərini və təkliflərini geniş auditoriyaya çatdırmağa cəhd edirlər. Məsələn, Yunanıstanın Baş naziri Kiriakos Mitsotakis COP29 çərçivəsində Avropa İttifaqında tənzimləmə siyasətinin yenidən qurulmasına ehtiyac olduğunu vurğulayıb. Mitsotakis iqlim keçidinin qaçılmaz çətinliklərə səbəb olacağını, lakin düzgün planlaşdırma ilə bu keçidin mümkün ola biləcəyini qeyd edib. Kiriakos Mitsotakis bildirib ki, ağıllı və proqramlı olmaq lazımdır: “Keçid ağrısız olmayacaq. Avropada tənzimləmənin yenidən qurulmasına ehtiyacı var. Hər ölkənin öz yolu olmalıdır. Xəsislik Avropanın ictimai rifahıdır. Avropaya uyğunlaşma üçün daha çox resurs lazımdır”.

Bəli, COP29 platforması Yunanıstanın bu mövzuda Avropaya mühüm çağırışlar ünvanlamasına imkan yaratdı və Yunanıstanın ekoloji keçid siyasətində daha konkret və proqramlı fəaliyyətlərə üstünlük verəcəyini açıqladı...




### Qafqaz iqlim dəyişikliyi ilə mübarizədə vahid platformadan çıxış edir...

COP29-un Qafqazda ilk dəfə keçirilməsi Azərbaycanın təşəbbüskarlığını və regionun əhəmiyyətini ön plana çıxarır. Bu, həm də Azərbaycanın iqlim dəyişikliyi məsələlərində qlobal səhnədə öz mövqeyini gücləndirməsinə şərait yaradır. Azərbaycan üçün bu platforma, iqlim problemlərinə dair Qafqaz regionunda yeni bir inkişaf istiqamətinin formalaşmasına imkan yaradır. Bu, Azərbaycanın özünü qlobal ekoloji məsələlərdə daha fəal tərəfdaş kimi göstərməsi və region üçün də iqlim dəyişiklikləri ilə bağlı yeni perspektivlər açması baxımından tarixi hadisədir. Azərbaycanın bərpa olunan enerji potensialı, xüsusilə günəş və külək enerjisi sahəsində güclüdür. COP29 çərçivəsində Azərbaycan bu sahədə bir sıra mühüm layihələrə start verərək, digər ölkələri, xüsusilə regionu bərpa olunan enerjiyə keçidə dəvət edir. Bu təşəbbüs, qlobal miqyasda enerji sistemlərinin daha yaşıl və dayanıqlı olmasına kömək edir və Azərbaycanın ekoloji siyasətinin strateji əhəmiyyətini nümayiş etdirir. Vurğulandığı kimi, Azərbaycan COP29 çərçivəsində Qafqaz regionunu iqlim dəyişikliyi ilə mübarizədə bir araya gətirərək, regionun qlobal iqlim gündəminin bir parçası olmasını təmin edir. Bu tədbir vasitəsilə region ölkələri ekoloji təhdidlərə qarşı vahid mövqe tutaraq, yeni bir inkişaf mərhələsinə qədəm qoyur. Yeri gəlmişkən, Gürcüstanın Baş naziri İrakli Kobaxidze də tədbirə dəvətə görə, Azərbaycan Prezidentinə təşəkkür edib: “COP Qafqazda ilk dəfədir. Azərbaycana uğurlar arzulayıram. Gürcüstan COP29-un uğurlu nəticələrinə nail olmaq və Cənubi Qafqazı imkanlar və uğur regionuna çevirmək üçün Azərbaycandan olan qonşuları və dostları ilə işləməyə davam edəcək”.

### Afrika üçün İqlim Fonduna 4 milyard dollardan çox vəsait

Bu tədbir həm də qlobal dəstək mövzusunu yenidən aktuallaşdırmış oldu. Bakıda aparılan müzakirələrdə oratya qoyulan mövqelər, bildirilən fikirlər bu mənada da xüsusi əhəmiyyət daşıyır. Məsələn, İtaliyanın Baş naziri Giorgia Meloni COP29 platformasında çıxış edərək inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında məsuliyyətlərin bölüşdürülməsi zərurətini vurğuladı. İtaliya Afrika üçün İqlim Fonduna 4 milyard dollardan çox vəsait ayıraraq qlobal iqlim məsuliyyətinə öz töhfəsini verir. İtaliyanın bu dəstəyi, eyni zamanda Afrika ölkələrinə yaşıl keçid prosesində mühüm yardım olacaq. Bu fond vasitəsilə həm də qlobal ədalətli bölüşdürmə məqsədi güdülür ki, inkişaf etməkdə olan ölkələr iqlim dəyişikliyinin mənfi təsirlərindən daha az əziyyət çəksinlər. Baş nazir Giorgia Meloni hesab edir ki, konsensusa nail olmaq inkişaf etmiş və inkişaf etməkdə olan iqtisadiyyatlar arasında məsuliyyətlərin bölüşdürülməsini və fərqlərin aradan qaldırılmasını tələb edir: “İtaliya Afrika üçün İqlim Fonduna 4 milyard dollardan çox vəsait ayırır. Biz həmçinin yaşıl iqlimi və zərər və ziyan fondlarını dəstəkləyirik. Qalıq yanacaq təchizatı üçün vahid alternativ yoxdur. ÜDM-in artımı qlobal miqyasda enerji istehlakını artırır. Biz enerji forumunu geosiyasi silahdan geniş şəkildə əlçatan resursa çevirə bilərik. Sülh Naminə Azərbaycan Prezidentliyinə təşəkkür edirik. COP-un uğurlu və ya uğursuz olması bizdən asılıdır”.

### Qlobal öhdəliklərə sadiqlik...

Azərbaycanın COP29-a ev sahibliyi etməsi, iqlim dəyişikliyi ilə mübarizədə qlobal yaşıl çağırışların reallaşmasında önəmli rol oynayır. Azərbaycanın təşəbbüsləri və dəstəyi ilə COP29 dünya ölkələrini iqlim dəyişikliyinə qarşı vahid mübarizə platformasına cəlb etməyi bacardı. Bu tədbir Azərbaycanın iqlim dəyişikliyi mövzusunda qlobal öhdəliklərə sadiqliyini və regionda yaşıl iqtisadiyyatın inkişafı üçün mühüm bir mərkəz olma potensialını göstərir. COP29 hər bir dövlət üçün gələcək öhdəliklərin daha konkret şəkildə təyin olunmasında mühüm rol oynayır və dünya miqyasında iqlim siyasətində yeni mərhələnin başlanğıcını qoyur.

*P.SADAYOĞLU*

# Azərbaycan Bolqarıstanın enerji təhlükəsizliyinin əsas təminatçısına çevrilir

**Noyabrın 13-də Prezident İlham Əliyev və Bolqarıstan Prezidenti Rumen Radev ilə görüşü çərçivəsində “SOCAR və “Asarel Energy” arasında Birgə İnkişaf Sazişi” imzalanıb. Sənəd iki ölkə arasında iqtisadi və enerji sahəsində əməkdaşlığın növbəti mərhələyə yüksəlməsi üçün dərin zəmin yaradır. Eyni zamanda, hər iki ölkə bərpaolunan enerji sahəsində də yeni əməkdaşlıq layihələrinə xüsusi diqqət yetirir və dövlət başçılarının görüşündə “yaşıl enerji” layihələrinin perspektivləri müzakirə olunub. “SOCAR və “Asarel Energy” arasında Birgə İnkişaf Sazişi” çərçivəsində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi bu ölkənin daha dayanıqlı qaz təminatını möhkəmləndirəcək, SOCAR Bolqarıstanın milli enerji korporosiyalarının əsas müttəfiqinə çevriləcək. Qeyd edək ki, “Asarel Energy” Bolqarıstanın qaz təchizatı sistemində operator kimi bu ölkənin paylayıcı və ötürücü qaz şəbəkələrinə nəzarət edir, qaz tədarüklərini həyata keçirir. Şirkətin SOCAR-la əməkdaşlığı çərçivəsində Bolqarıstanın qazla təmin edilməyən bölgələrinin qazlaşdırılması layihəsi icra ediləcək ki, bu da ölkənin enerji təhlükəsizliyinin möhkəmlənməsində əsaslı rol oynayacaq. Azərbaycan SOCAR-ın timsalında Bolqarıstanın milli qaz sənayesinin əsas qarantına çevriləcək.**

## “SOCAR və “Asarel Energy” arasında Birgə İnkişaf Sazişi” Avropa regionunda enerji bağlantısını daha da möhkəmləndirəcək

### Bolqarıstanın qaz təchizatının 50 faizindən çoxu Azərbaycanın payına düşür

Azərbaycan Bolqarıstanın enerji təminatında mühüm və həlledici tərəfdaşa çevrilib. Bolqarıstanın dövlət başçısı Rumen Radev dəfələrlə bildirib ki, Azərbaycan onun ölkəsinin enerji-yanacaq təchizatında ən etibarlı tərəfdaşdır və çətin günlərdə köməyinə çatıb. Belə ki, Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar Şərqi Avropada qaz nəqli xətlərində yaranan böhranın fəsadları Bolqarıstana da ciddi mənfi təsirlərini göstərdi və həmin günlərdə bu ölkənin enerji böhranından xilas edən yeganə qaz mənbəyi Azərbaycan oldu. Respublikamız bolqar xalqının şaxtalı qış günlərində yanacaq sıxıntısı yaşamasına imkan vermədi.

2022-ci ilin noyabr ayında Azərbaycan qazını Bolqarıstana nəql edən Yunanıstan-Bolqarıstan qaz interkonnektorun işə düşməsindən sonra Cənub Qaz Dəhlizi Mərkəzi və Şərqi Avropaya birləşib və enerji diversifikasiyası bütün region və Avropa üçün böyük əhəmiyyət daşıyıb, Azərbaycan qazının Bolqarıstana ixracı isə əhəmiyyətli dərəcədə artıb. 2023-cü ildə 1 milyard 250 milyon kubmetr qaz nəql edilib ki, bu, əvvəlki illə nisbətdə 650 milyon kub metr çoxdur. Nəticədə bu ölkənin enerji təhlükəsizliyi Azərbaycanın hesabına daha da möhkəmləndi, Bolqarıstanın qaz təminatının 50 faizindən çoxu Azərbaycan qazı hesabına formalaşdı. Hazırda imkanlar daha da böyüyür və cari ilin sonu, növbəti ilin əvvəllərində Azərbaycan qazının Bolqarıstan bazarında payının 70 faizə çatması gözlənilir. Bundan əlavə, 2023-cü ilin sonunda Bolqarıstan Türkiyə ilə hökumətlərarası saziş imzalayaraq Türkiyənin yeraltı qaz anbarlarında yaz-yay mövsümündə qazın saxlanılması və onun payız-qış mövsümündə idxalına dair razılıq əldə edib. Türkiyənin yeraltı qaz anbarlarının yaradılmasında və təchizatında da Azərbaycan aparıcı yer aldığından faktiki olaraq Bolqarıstanın əlavə ehtiyacları da Dövlət Neft Şirkətinin (SOCAR) baş podaratçı olduğu həmin layihə çərçivəsində həll ediləcək. Bu baxımdan, Bolqarıstanın enerji təminatı birbaşa Azərbaycanın imkanları və şaxələndirilmiş enerji siyasəti sayəsində tənzimlənməkdədir.




### Azərbaycan “Həmrəylik Halqası”nda öz imkanlarını artırır

Bolqarıstanın sənaye və əlavə daxili istehlak tələbatlarının artması nəzərə alınaraq qarşıdakı illərdə yanacağın digər qismlərinin də tankerlərlə daşınan Azərbaycana məxsus maye qaz hesabına təmin olunması istisna edilmir. COP29 sammiti çərçivəsində Bakıda Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə Rumen Radev yeni əməkdaşlıq imkanlarından bəhs edərkən yanacağın şaxələndirilməsi imkanlarına işarə edib. Yəni, rəsmi Sofiya bütünülüklə özünün yanacaq-enerji komplekslərini, sənaye təchizatlarını Azərbaycanın resursları hesabına dayanıqlı şəkildə təmin etməkdə qərarlıdır. Bunun da başlıca səbəbi ölkəmizin etibarlı və sadiq tərəfdaş, enerji dostu olması ilə bağlıdır.

Azərbaycan-Bolqarıstan enerji əməkdaşlığı, Şərqi Avropanın digər regionlarına da yanacağın şaxələnməsi üçün əlverişli imkanlar açır. Belə ki, TAP nəql sisteminin bir hissəsi olan Yunanıstan-Bolqarıstan qaz interkonnektorunun növbəti axıcı qolları Bolqarıstan-Serbiya və Bolqarıstan-Rumıniya interkonnektorlarıdır ki, bu infrastrukturlar vasitəsilə Azərbaycan qazının Serbiya və Rumıniyaya nəqli də gerçəkləşmiş olur. 2 il əvvəl Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Slovakiya və Azərbaycan qazın bu bölgədə şaxələndirilməsini təmin edən “Həmrəylik halqası” layihəsi ilə bağlı memorandum imzalayıb. “Həmrəylik Halqası” Azərbaycan qazının mərhələlərlə Şərqi Avropanın bütün nöqtələrinə çatdırılmasını nəzərdə tutur. Həmin memoranduma əsasən, Serbiya bir neçə aydır ki, bu şəbəkədən qaz əldə edərək TAP ailəsinə qoşulub, Rumıniya isə ilin sonunda bu şəbəkədən faydalana bilər. SOCAR və Rumıniyanın enerji şirkəti “Romgaz S.A.” arasında qaz tədarükü haqqında ötən il imzalanmış müqavilənin icrası üzrə texniki-hüquqi işlər yekunlaşmaqdadadır və yaxın aylarda Azərbaycandan Rumıniyaya 1 milyard kubmetr qazın nəqli nəzərdə tutulur.

Beləliklə, Azərbaycan və Bolqarıstan arasında enerji və iqtisadi əməkdaşlığın dinamikasını artırmaqla yanaşı, TAP regionda qaz təchizatı təhlükəsizliyinin təkmilləşməsinə və Avropanın enerji bağlılığının daha da möhkəmlənməsinə töhfə verəcək.

*ELBRUS*

# Birlikdə təbiətin keşiyində

## Heydər Əliyev Fondu COP29 tədbirlərinə güclü ictimai dəstək verir

Hazırda iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizənin gücləndirilməsi dünya üzrə ən aktual çağırışlardan birinə çevrilib. Aydın şəkildə dərk olunur ki, qlobal istiləşmənin doğurduğu təhdidlərlə mübarizədə yalnız dövlətlər səviyyəsində fəaliyyətlər kifayət deyil. Bəşəriyyəti xilas etmək naminə cəmiyyətlər səviyyəsində fəallıq artırılmalıdır. Hər kəs təbiət və ətraf mühit məsələsinə çox həssas yanaşma sərgiləməlidir.

Bu baxımdan Cənubi Qafqazın ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondunun fəaliyyəti təqdirəlayiqdir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi qurum davamlı olaraq ətraf mühitin qorunması ilə bağlı təşəbbüslər irəli sürür və yeni layihələr həyata keçirir. Son bir ildə Birinci vitse-prezident hazırda Bakının böyük uğurla ev sahibliyi etdiyi COP29 konfransına hazırlıq mərhələsində yüksək fəallıq göstərdi. Eyni fəallıq COP29 günlərində də müşahidə olunur. Qurum COP29 tədbirlərinə güclü ictimai dəstək verir. Mehriban xanım Əliyeva konfrans çərçivəsində müxtəlif tədbirlərə qatılaraq səmərəli ideyalar və təşəbbüslər irəli sürür. Noyabrın 12-də COP29 çərçivəsində Yaşıl Zonada "Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində" mövzusunda konfrans da bu qəbildəndir.

### Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində

Tədbirin əsas məqsədi Mərkəzi Asiya və türkdilli dövlətlərin iqlim dəyişikliyinə qarşı mübarizəyə verdiyi önəmi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və bu dövlətlərin gənclərini iqlim gündəliyinə cəlb etməklə beynəlxalq öhdəliklər istiqamətində görülən tədbirləri təqdim etmək olub. Tədbirdə çıxış edən Mehriban xanım Əliyeva COP29 çərçivəsində əməkdaşlıq, təcrübə mübadiləsi, gənc nəsil tərəfindən birgə layihələrin müəyyənləşdirilməsi üçün platformanı yaratmaq imkanının olacağına əminliyini ifadə edib. "Əziz dostlar, COP29 ölkəsi seçilmək bizim üçün böyük şərəfdir. Biz fərəhlənirik ki, Cənubi Qafqazda, Mərkəzi Asiyada və daha geniş regionda ilk COP konfransı məhz Azərbaycanda keçirilir", - deyə Mehriban xanım Əliyeva vurğulayıb.

COP29 çərçivəsində belə bir tədbirin keçirilməsi təsadüfi deyil. Aparılan son tədqiqatlara görə, dünya gənclərinin 60 faizdən çoxu iqlim dəyişmələrini təxirəsalınmaz məsələ hesab edir. Eyni zamanda, Türk Dövlətləri Təşkilatında (TDT) birləşən dost ölkələr iqlim çağırışlarına xüsusi həssaslıqla yanaşırlar və bu məsələdə həmrəylik ortaya qoyurlar ki, burada birinci xanımların da rolu böyükdür. Məsələn, Türkiyə Respublikasının birinci xanımı Sıfır Atık Fondunun yaradılmasında təşəbbüs göstərib, eləcə də mədəni irsin qorunmasına yönələn layihələrə şəxsən töhfə verib. Ötən il Özbəkistan tərəfindən 2024-2030-cu illərə aid iqlim gündəliyində uşaqların və gənclərin iştirakını, o cümlədən dayanıqlı inkişafı təşviq etmək məqsədilə Mərkəzi Asiya Strategiyasının qəbul edilməsi ilə nəticələnən təşəbbüs irəli sürülüb və Özbəkistanın birinci xanımı bu cür mühüm mərama şəxsən himayədarlıq edib. Qırğızıstanın birinci xanımı ətraf mühit gündəliyi barədə maarifləndirmənin artırılmasında, həmin gündəliyə gənclərin qoşulmasında fəal rol oynayıb.

Bəhs olunan fəaliyyətlərə görə dost ölkələrin birinci xanımlarına təşəkkürünü bildirən Mehriban xanım Əliyeva diqqəti dünyanı narahat edən iqlim çağırışlarına yönəldib.

### Riyakarlıq və ikili standartlar beynəlxalq ətraf mühit gündəliyində aydın görünür

COP29-a ev sahibliyi hüququnu öz üzərinə götürməsi ölkəmizin iqlim çağırışlarına həssas yanaşmasının, qlobal təhdidlər qarşısında beynəlxalq həmrəyliyin gücləndirilməsinə töhfə vermək istəyinin göstəricisidir. Mehriban xanım Əliyevanın bildirdiyi kimi, Azərbaycan COP29-a ev sahibliyi etmək öhdəliyini üzərinə götürməklə, Qlobal Cənub və Qlobal Şimal, eləcə də inkişaf etmiş və inkişaf edən ölkələr arasında körpülər salmağa çalışır. Məqsədimiz bu məsələnin həllinə verdiyimiz töhfəni ortaq gələcəyə verəcəyimiz töhfəyə çevirməkdən ibarətdir.

Bununla belə, ötən ilin dekabrında Dubayda COP29-a ev sahibliyi hüququnun Azərbaycana verilməsi təsdiqləndikdən sonra ölkəmiz bəzi Qərb dairələrinin əsassız hücumlarına məruz qalıb. COP29-u sabotaj etmək istəyən həmin dairələrin bəhanələri budur ki, Azərbaycan neft-qaz ölkəsidir və buna görə də BMT-nin iqlim konfransına ev sahibliyi edə bilməz. Absurd və qərəzli yanaşmadır. Qeyd olunan dairələr reallığı nəzərə almırlar. Bəli, Azərbaycan neft-qaz ölkəsidir. Ancaq bu, Qərb dairələrinin ölkəmizin ünvanına ittihamlar səsləndirmələri üçün əsas sayıla bilməz. Əvvəla, Azərbaycan Avropanın enerji təhlükəsizliyinə sanballı töhfələr verən ölkədir. Azərbaycanla enerji əməkdaşlığı Avropa İttifaqı məkanı üçün həyati əhəmiyyət daşıyır. O nəticə hasil olur ki, sözügedən dairələr Avropanın ümumi maraqlarına qarşı çıxırlar. Digər tərəfdən, Azərbaycan neft-qaz sahəsində emissiyaları azaltmaq hədəfi müəyyənləşdirib və öhdəliklərini yüksək səviyyədə yerinə yetirir. Qərəzli dairələrin "arqumentlərini" puç edən ən mühüm fakt isə ondan ibarətdir ki, qlobal neft-qaz hasilatında Azərbaycanın payı çox azdır. Qlobal istixana tullantılarının cəmi 0,1 faizi Azərbaycanın payına düşür. Bəs nə üçün iri istehsalçılar və Avropadakı istehlakçılar qınanılmır, Azərbaycan isə əsassız tənqidlərə məruz qalır? Bu, ədalətsizlikdir. Mehriban xanım Əliyevanın vurğuladığı kimi, riyakarlıq və ikili standartlar beynəlxalq ətraf mühit gündəliyində aydın görünür.











### Ölkəmiz yaşıl hədəflərinə doğru

Neft-qaz ölkəsi olmasına rəğmən, Azərbaycan enerji transformasiyasına da güclü siyasi iradə nümayiş etdirir. Bu sahədə ölkəmizin prioritetlərinə diqqət çəkən Mehriban xanım Əliyeva bildirib ki, biz havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru gedirik. "Bərpaolunan enerji sahəsində əldə edilən nailiyyətlərin cari tempi ilə biz 2027-ci ilə qədər quraşdırılan güclərimizin 32 faizə çatacağını, 2030-cu ilə qədər 30 faizlik azalma kimi ilkin hədəfə üç il əvvəl nail olacağımızı gözləyirik", - deyə birinci xanım vurğulayıb.

Bütövlükdə, Azərbaycanın yaşıl gündəliyi kifayət qədər genişdir. Mehriban xanım Əliyevanın bildirdiyi kimi, biz, həmçinin Ermənistanın işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında 2050-ci ilə qədər "xalis sıfır atılmalar zonası"nın yaradılmasına diqqət yetiririk. Əsasən Günəş və külək enerjisi layihələri ilə bağlı artıq fəal iş aparılır. Yaşıl enerjinin istehsalı və ixracı Azərbaycanın enerji strategiyasında prioritet təşkil edir.

### "Azərbaycan. Təbiətin sehrində"

Bakıda keçirilən COP29 çərçivəsində noyabrın 13-də Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşri təqdim edilib.

"Azərbaycan. Təbiətin sehrində" (Azerbaijan. Inspired by Nature) kitabı Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihə çərçivəsində nəşr olunub.

Layihənin ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, layihə rəhbəri Prezidentin köməkçisi Anar Ələkbərovdur.

Tədbirdə bildirilib ki, nəşrin COP29 günlərində təqdimatı təsadüfi deyil. Burada Azərbaycanın füsunkar təbiəti, flora və faunasına dair fotoşəkillər, müvafiq məlumatlar yer alıb. Kitab oxucuları Azərbaycanın ecazkar təbiəti ilə tanış etməklə yanaşı, bu zənginliyin əhəmiyyətini, onun qorunub saxlanılmasının vacibliyini gündəmə gətirir. Tədbirdə çıxış edən Leyla Əliyeva kitabın hər kəsi təbiəti sevməyə və onu qorumağa səslədiyini bildirib.

*Mübariz ABDULLAYEV*

# Kiçik ada dövlətlərinə Bakının böyük dəstəyi...

## COP29 bu ölkələrin səslərinin eşidilməsi üçün mühüm beynəlxalq platforma yaradır

### Dünya liderləri Azərbaycana dəstəyinə görə təşəkkür edir

Qlobal iqlim təhdidi yaşadığımız yüzilliyin ən mühüm problem və təhlükələrindən biridir. Subyektiv və obyektiv amillərlə ortaya çıxan bu təhdid bəşəriyyətin, Yer kürəsinin hər bir nöqtəsinə təsirsiz ötüşmür. Kiçik ada dövlətləri isə qlobal iqlim dəyişikliyinin ən çox təsir etdiyi ölkələrdən sayılır. Bu dövlətlər çox vaxt geoloji olaraq dəniz səviyyəsindən aşağı ərazilərdə yerləşdikləri üçün qlobal iqlim dəyişmələrinin əsas nəticəsi kimi meydana çıxan subasmalardan əziyyət çəkir. Paralel olaraq atmosferə buraxılan çirkli qazların miqdarının artımı bu ölkələrə yan təsirlər buraxan əsas amillərdən sayılır - həmin ərazilərdə təbii qanunauyğunluqlar pozulur, tez-tez yağışlar, tufanlar, qasırğalar baş verir. Bir sözlə, iqlim təhdidləri kiçik ada dövlətlərinin varlığını açıq şəkildə təhdid edir. Ortadakı təbii fəlakətlərə qarşı bu dövlətlərin reaksiyası isə güclü deyil - kiçik ada dövlətləri tropik fırtınaların, quraqlıqların və ekstremal hava şəraitinin yaratdığı iqlim şəraitinə qarşı çox həssasdırlar. Bu məsələlər onların kənd təsərrüfatı, içməli su ehtiyatları və insanların gündəlik həyatına ciddi təsir göstərir.

Lokal səviyyədə kiçik ada dövlətləri üçün xarakterik fəlakətə çevrilən bu hallar daha böyük anlamda qlobal təhdidlərin siqnalıdır. Nəzərə alsaq ki, kiçik ada dövlətlərinin təbii resursları da çox məhduddur, o zaman, iqlim dəyişikliyi səbəbindən bu dövlətlər qlobal ətraf mühit dəyişikliyinə

### Bakı Bəyannaməsi kiçik ada dövlətlərinin iqlim dəyişikliyi ilə mübarizədə səslərinin daha güclü eşidilməsini təmin edən mühüm bir sənəddir

qarşı daha zəif müqavimət göstərirlər. Vurğulandığı kimi, yaşanan bu problemlərin qlobal səviyyəyə təsiri böyükdür, çünki dəniz səviyyəsinin qalxması və tropik fırtınaların artması, təkcə kiçik ada dövlətləri deyil, həm də dünyanın bir çox başqa regionlarını təhdid edir. Bu isə özlüyündə humanitar böhranlara yol açan səbəbə çevrilə bilir. Eyni zamanda, qlobal iqlim siyasətinə də mənfi təsir göstərir. Beləliklə, bu problemlər yalnız bu dövlətlər üçün deyil, qlobal miqyasda da ciddi məsələyə çevrilir.

### Problemin dərinləşmə səbəbləri...

Bəs bu problemlərin aradan qaldırılması üçün hansı aktiv fəaliyyət həyata keçirilir? Böyük dövlətlər, xüsusilə inkişaf etmiş ölkələr bəzi hallarda iqlim dəyişikliyi məsələlərində üzərlərinə düşən öhdəlikləri əməl etmirlər. Bu dövlətlər, dünya üzrə ən yüksək karbon emissiyasına sahib olsalar da, kiçik ada dövlətlərinin təbii resurslarının qorunması və inkişafı istiqamətində müvafiq addımlar atmırlar.

Məsələn, Paris İqlim Sazişi çərçivəsində qəbul edilmiş qərarların bir çoxu bəlli olduğu kimi, böyük dövlətlər tərəfindən yerinə yetirilmir. Onlar karbon emissiyalarını azaltmaq əvəzinə, daha çox fosil yanacaqlara əsaslanan iqtisadiyyatları davam etdirməkdə maraqlıdırlar. Bu kimi laqeyd yanaşma isə ortadakı problemlərin həlli üçün vacib sayılan dəstəyin olmamasına gətirib çıxarır. Bütün bu yanaşmalar kiçik ada dövlətlərinin beynəlxalq siyasi və iqtisadi səhnədə səsini zəiflədir və bu dövlətlərin yaşadığı problemlərin qlobal səviyyədə müzakirə olunmasına mane olur. Sözügedən problemlər ciddi qlobal siyasi narahatlığa səbəb olmasına baxmayaraq, bu dövlətlərin yaşadığı təbii fəlakətlər və çətinliklər dünyanın aparıcı gücləri tərəfindən çox vaxt görməzdən gəlinir.

### Bakının təşəbbüsü...

Azərbaycan, son illərdə iqlim dəyişikliklərinin qarşısını almağa və kiçik ada dövlətlərinin problemlərinə dəstək olmağa yönəlik müxtəlif təşəbbüslərlə önə çıxıb. Azərbaycanın iştirakı ilə keçirilən beynəlxalq iqlim tədbirlərində, xüsusən də Bakıda reallaşan COP29 sammitində kiçik ada dövlətlərinin problemləri qlobal müstəvidə, demək olar ki, Çərçivə Konvensiyasına üzv olan bütün tərəflərin iştirakı ilə geniş müzakirə edilir. Bakının təşəbbüsü ilə ortaya çıxan bu tədbirlər vasitəsilə isə kiçik ada dövlətlərinin səslərini gücləndirmək və həmin ölkələrə konkret dəstək vermək üçün bir çox beynəlxalq əməkdaşlıq layihələri təşviq edilir.

### Kiçik ada dövlətlərinin qlobal iqlim dəyişikliyinə qarşı mübarizəsində yaxın tərəfdaşı

Eyni zamanda, Azərbaycanın Azərkosmos vasitəsilə əldə etdiyi iqlim məlumatları, iqlim dəyişikliyi ilə mübarizəyə yönəlmiş texnoloji dəstək kiçik ada dövlətlərinə həyatlarını yaxşılaşdırmağa və təbii fəlakətləri izləməyə kömək edir. Bu, həm də iqlim dəyişikliyi ilə mübarizə üçün innovativ yanaşmaların təməlini atır. Təsadüfi deyil ki, İqlim dəyişmələri üzrə Kiçik Ada Dövlətlərinin Liderlər Sammitində çıxış edən Millətlər Birliyi təşkilatının (Commonwealth) Baş katibi Patrisia Skotlend Azərbaycan Hökumətinin və Azərkosmosun Commonwealth ilə imzaladığı 2 Memoranduma görə təşəkkürünü bildirib. Vurğulandığı kimi, Azərbaycan Azərkosmos vasitəsilə iqlim dəyişikliyinin qarşısını almağa yönəlmiş qabaqcıl texnologiyaları tətbiq edir. Azərkosmosun kiçik ada dövlətləri ilə əməkdaşlıq sahəsində əldə etdiyi uğurlar, bu ölkələrin iqlim dəyişikliyinə qarşı mübarizəsini daha effektiv edir. Commonwealth ilə imzalanan Memorandumlar da bu əməkdaşlığın dərinləşməsinə kömək edir. Bu memorandumlar, iqlim dəyişmələri ilə bağlı qabaqcıl texnologiyalar və məlumat mübadiləsini təmin etmək məqsədini güdür. Beləliklə, Azərbaycan kiçik ada dövlətləri üçün qlobal iqlim dəyişikliyinə qarşı mübarizədə fəal iştirak edən bir tərəfdaş kimi mövqeyini möhkəmləndirir.

Patrisia Skotlend iqlim maliyyələşməsi işində uğurlu rəhbərliyə görə Prezident İlham Əliyevə və Baş katib Antonio Quterreşə minnətdarlıq edib: "Ümid edirik ki, maliyyə ilə bağlı bu yanaşma sayəsində COP29-da real nəticələrə nail olacağıq".

Patrisia Skotlend COP29 çərçivəsində kiçik ada dövlətləri ilə bağlı xüsusi tədbirin təşkilinə görə də Prezident İlham Əliyevə təşəkkürünü bildirərək deyib: "COP29-a sədrlik edən tərəfin elan etdiyi iqlim maliyyələşməsinə dair fondun yaradılması təşəbbüsü mənə böyük təəssürat bağışladı. Resursların açılmasını və paylanmasını təmin etmək üçün icra mexanizmlərinin işlənilməsinə dəstək verməyə hazırıq. Mən bu təklifi ona görə verirəm ki, üzv dövlətlərimiz təcili şəkildə iqlim maliyyəsi ilə bağlı vədlərə ehtiyac duyur. Onlar buna Yaşıl İqlim Fondu, İtki və Zərərlər Fondu xətti ilə nail ola bilər".

### Qlobal iqlim təhdidinə qarşı Bakı Bəyannaməsi...

Ümumiyyətlə, COP29 iqlim dəyişikliyi ilə mübarizə mövzusunda xüsusilə kiçik ada dövlətləri üçün çox vacib bir mərhələdir. Bu sammit kiçik ada dövlətlərinin qarşılaşdığı konkret problemləri qlobal miqyasda müzakirə etmək və bu problemlərin həllinə yönəlmiş konkret tədbirlər qəbul etmək üçün mühüm bir platforma kimi çıxış edir. COP29-da qəbul edilən qərarlar kiçik ada dövlətlərinin qarşılaşdığı təbii fəlakətlərin qarşısını almaq və bu ölkələrin davamlı inkişafını təmin etmək üçün əhəmiyyətli imkanlar açır. Paralel olaraq COP29 kiçik ada dövlətlərinin problemlərinin diqqətə alınmasını təmin edən bir vasitə olmağı hədəfləyir. Bu sammit, həmçinin iqlim dəyişikliyinin hər bir dövlətin məsuliyyəti olduğunu vurğulamaqla yanaşı, iqlim sahəsində beynəlxalq əməkdaşlığın əhəmiyyətini də gücləndirir. Bu tədbir kiçik ada dövlətlərinə öz səsini gücləndirmək, daha çox beynəlxalq dəstək əldə etmək və iqlim dəyişikliyinə qarşı mübarizədə daha təsirli addımlar atmaq imkanı verir.

COP29 çərçivəsində keçirilən kiçik ada dövlətləri Liderlər Sammiti bu dövlətlərin iqlim dəyişikliyinə qarşı birləşdiyi və bu sahədə əməkdaşlıq etdikləri mühüm bir məqamdır. Sammit kiçik ada dövlətlərinin iqlim dəyişikliyinə qarşı mübarizədə hansı yolları seçməli olduğunu müəyyənləşdirir və bu dövlətlərin qlobal miqyasda daha çox dəstək tapmalarını təmin edir. Bu sammitdə əldə edilən qərarlar eyni zamanda, digər ölkələrin də iqlim dəyişikliyi ilə bağlı məsuliyyətlərini və öhdəliklərini yerinə yetirməyə sövq edir. Sammitin nəticəsi olaraq kiçik ada dövlətlərinin səslərinin gücləndirilməsinə dair qəbul edilən Bakı Bəyannaməsinə gəldikdə isə, bu, kiçik ada dövlətlərinin iqlim dəyişikliyi ilə mübarizədə səslərinin daha güclü eşidilməsini təmin edən mühüm bir sənəddir. Bu bəyannamə, kiçik ada dövlətlərinin qlobal iqlim siyasətinə təsirini artırmaq və iqlim dəyişikliyinin qarşısını almaq üçün daha çox beynəlxalq dəstək təmin etmək məqsədini güdür. Bəyannamə, həmçinin iqlim dəyişikliyi məsələsində bu ölkələrin hüquqlarının tanınmasını və bu dövlətlərə verilən beynəlxalq dəstəyin artırılmasını nəzərdə tutur. Bakı Bəyannaməsi qlobal iqlim siyasətində mühüm bir addım kimi yeni tarixi mərhələ formalaşdırır.



### Azərbaycana təşəkkür edirlər...

Yeri gəlmişkən, dünya liderlərinin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Sammitində çıxış edən rəhbər şəxslər də COP29-un təşkilinə görə Azərbaycana minnətdarlıq ifadə edib, iqlim dəyişmələrinin böyük fəlakətlərə səbəb olduğu bu ölkələr üçün iqlim maliyyələşməsinin və uğurlu danışıqların əhəmiyyətini vurğulayıblar. Onlar COP29 çərçivəsində kiçik ada dövlətlərinin problemlərinin müzakirə olunduğu yüksəksəviyyəli tədbirin təşkilinin önəmini xüsusilə qeyd ediblər. Sakit Okean Adaları Forumunun sədri, Tonqa Krallığının Baş naziri Siaosi Sovaleni sammitdəki çıxışında səmimi qonaqpərvərliyə və kiçik Okeaniya ölkələrinin problemlərini və mövqeyini dünya ictimaiyyətinə çatdırmaq imkanına görə Azərbaycan Prezidentinə və xalqına minnətdarlıq edib.

Qrenadanın Baş naziri, Karib Ölkələri Birliyinin (CARICOM) sədri Dikon Mitçell COP29-un "Yaxşı COP" kimi yadda qalacağına əminliyini ifadə edib.

Yaşıl İqlim Fondunun (Green Climate Fund) icraçı direktoru Mafalda Duarte rəhbərlik etdiyi fonda əlçatanlığın təmin olunması istiqamətində ciddi tədbirlər gördüklərini diqqətə çatdırıb.

İtki və Zərərlərə Cavab Fondunun icraçı direktoru İbrahima Şeyx Dionq Fondun fəaliyyətə başlamasında Azərbaycanın liderliyini vurğulayıb və ölkələr tərəfindən yeni maliyyə öhdəliklərinin götürüldüyünü diqqətə çatdırıb.

*P.İSMAYILOV*

# YAP nümayəndə heyətinin ÇKP Mərkəzi Komitəsinin departament direktoru ilə görüşü keçirilib

Xəbər verildiyi kimi, Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir.

Səfər çərçivəsində noyabrın 15-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) Beynəlxalq əlaqələr şöbəsinin Altıncı Departamentinin direktoru xanım Van Min ilə görüş keçirilib.

YAP nümayəndə heyətini salamlayan Van Min strateji tərəfdaşlıq səviyyəsinə yüksələrək keyfiyyətcə yeni mərhələyə qədəm qoyan Çin-Azərbaycan münasibətlərinin nümunəvi xarakter daşıdığını, ölkələr və partiyalararası çoxşaxəli əlaqələrin müsbət dinamikaya malik olduğunu və parlaq perspektivlər vəd etdiyini bildirib. Van Min qeyd edib ki, müasir beynəlxalq münasibətlər sistemində yüksək nüfuza malik iki dövlət arasında qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi Avrasiyada təhlükəsizlik və işbirliyi nöqteyi-nəzərindən mühüm əhəmiyyət daşıyır. O, Azərbaycan ilə Çinin milli maraqlara əsaslanaraq beynəlxalq platformalarda bir-birinə daim dəstək göstərdiklərini xüsusi vurğulayıb.

Ölkəsinin yüksələn güc mərkəzi kimi qlobal müstəvidə strateji hədəflərindən söz açan Van Min Çinin digər tərəfdaş dövlətlərlə olduğu kimi, dost Azərbaycanla da əməkdaşlığa böyük əhəmiyyət verdiyini və milli maraqların təmini istiqamətində ortaq siyasi iradənin mövcud olduğunu diqqətə çatdırıb.

Azərbaycanın bəşəriyyət üçün taleyüklü məsələlərin həllində fəal roluna diqqəti cəlb edən Van Min ölkəmizin daha bir mühüm beynəlxalq tədbirə - BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a uğurla evsahibliyi etməklə dünyaya yeni müsbət nümunə təqdim edəcəyinə inamını ifadə edib.

Van Min YAP nümayəndə heyətinin səfəri çərçivəsində keçirilən məhsuldar görüşlərin, xüsusilə də iki hakim partiya arasında əməkdaşlıq memorandumunun imzalanmasının ölkələrarası strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə dəyərli töhfə verəcəyinə, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əlaqələrində yeni səhifə açacağına əminliyini bildirib.

Səmimi qəbula görə təşəkkürünü bildirən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Azərbaycan ilə Çinin diplomatik əlaqələrinin mövcud olduğu 30 ildən artıq müddətdə ikitərəfli qaydada və beynəlxalq platformalar çərçivəsində münasibətlərin uğurla inkişaf etdiyini və əhəmiyyətli nailiyyətlər qazanıldığını söyləyib.

Azərbaycanın öz ərazi bütövlüyü və suverenliyinin bərpasına nail olmaqla tarixi ədalətsizliyi aradan qaldırdığını vurğulayan YAP Sədrinin müavini Avrasiyanın mühüm geostrateji məntəqələrindən olan Cənubi Qafqazda yaranmış yeni reallıqlardan bəhs edərək postmüharibə dövründə ölkəmizin təşəbbüslərinin sülhə, sabitliyə, təhlükəsizliyə və inkişafa hədəfləndiyini bildirib. O, BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən biri olan Çin Xalq Respublikasının Azərbaycanın beynəlxalq hüquq normalarına əsaslanan haqlı və ədalətli mövqeyinə birmənalı dəstəyinin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

"İstər Azərbaycan, istərsə də Çin müasir beynəlxalq münasibətlər sistemində milli maraqlara hörmət prinsipinə əsaslanan ədalətli və çoxqütblü siyasi nizamın tərəfdarıdır. Multilateralizm tərəfdarı kimi çoxtərəfli diplomatiyaya böyük əhəmiyyət verən, beynəlxalq təhlükəsizliyə ciddi təhdidlər yaradan hallara qarşı barışmaz mövqe sərgiləyən və ikili standartları rədd edən ölkələrimiz müstəqil, prinsipial və konstruktiv siyasət həyata keçirməklə qlobal miqyasda dialoq və əməkdaşlığı təşviq edirlər",- deyə Tahir Budaqov əlavə edib.

YAP Sədrinin müavini bəşəriyyətin sağlam və xoşbəxt gələcəyinə hədəflənmiş təşəbbüslər irəli sürən və məqsədyönlü tədbirlər həyata keçirən Azərbaycanın bugünlərdə COP29-a müvəffəqiyyətlə ev sahibliyi etməsini diqqətə çatdıraraq Çinin bu istiqamətdə ölkəmizə dəstəyinin dostluq və tərəfdaşlıq örnəyi kimi təqdirəlayiq olduğunu söyləyib.

Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrinin yüksələn xətt üzrə inkişaf etdiyini bildirən Tahir Budaqov YAP-ın dost və tərəfdaş ölkələrin hakim partiyaları, o cümlədən Çin Kommunist Partiyası ilə səmərəli işbirliyinə malik olduğunu qeyd edib. "Heç şübhəsiz, YAP və ÇKP arasında əməkdaşlıq memorandumun imzalanması ilə partiyalararası münasibətlərdə yeni mərhələnin əsası qoyuldu. Dostluğun, qarşılıqlı hörmət və etimadın təzahürü olan memorandum bir çox mühüm sahələri əhatə etməklə gələcəyə yönəlik əməkdaşlığımızın əsas istiqamətlərini müəyyənləşdirən mühüm yol xəritəsidir", - deyən YAP Sədrinin müavini birgə fəaliyyət nəticəsində yeni tarixi uğurlara imza atılacağına əminliyini ifadə edib.

Görüş zamanı partiyanın İdarə Heyətinin üzvləri, millət vəkilləri Hikmət Məmmədov, Pərvin Kərimzadə, Elnarə Akimova, Ülviyyə Həmzəyeva, Azər Badamov, YAP Təftiş Komissiyasının sədri, millət vəkili Sevinc Hüseynova, Təftiş Komissiyasının üzvləri, millət vəkilləri Elman Nəsirov, Vüqar İskəndərov, Naqif Həmzəyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, YAP Gənclər Birliyinin üzvü, millət vəkili Səbinə Xasayeva Azərbaycan-Çin strateji tərəfdaşlıq münasibətlərinin mühüm tərkib hissəsi olan YAP-ÇKP əməkdaşlığının hazırkı durumu və gələcək hədəflərlə bağlı fikirlərini bildiriblər.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da müzakirələr aparıblar.

Noyabrın 15-də YAP nümayəndə heyəti Çin Kommunist Partiyasının Beynəlxalq əlaqələr şöbəsinin, ÇKP Szyansu Vilayət Komitəsinin və BRICS Beyin Mərkəzləri Əməkdaşlığının Çin Şurasının birgə təşkilatçılığı ilə "Qlobal sivilizasiya təşəbbüsünün həyata keçirilməsi" mövzusunda keçirilən tədbirdə də iştirak edib. Eyni zamanda, nümayəndə heyətinin Nankin şəhərinin tarixi məkanlarına, Qədim Çin Dövlət İmtahanları Muzeyinə və Konfutsi Məbədinə ziyarəti təşkil olunub.














# YAP-ın Xətai və Nərimanov rayon təşkilatlarına yeni təyin olunmuş sədrlər ictimaiyyətə təqdim edilib

Noyabrın 15-də Yeni Azərbaycan Partiyasının (YAP) Xətai və Nərimanov rayon təşkilatlarına yeni təyin olunmuş sədrlər ictimaiyyətə təqdim edilib.

YAP Xətai rayon təşkilatının inzibati binasında keçirilən təqdimat mərasimindən əvvəl Ümummilli Lider Heydər Əliyevin büstü önünə tər güllər düzülüb, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.

Tədbirdə çıxış edən YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyev, Milli Məclisin deputatları Vüqar Rəhimzadə və Pərvanə Vəliyeva tarixi zərurətdən irəli gələrək yaradılan Yeni Azərbaycan Partiyasının qısa müddət ərzində xalqı öz ətrafında sıx birləşdirərək siyasi səhnədə yüksəlişə nail olduğunu deyiblər.

Qeyd olunub ki, Ulu Öndər Heydər Əliyevin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolu ilə irəliləyən müasir Azərbaycan daim qüdrətlənir, möhtəşəm uğurlar qazanır. Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən Heydər Əliyev siyasəti gələcək uğurların həlledici əsasıdır.






Sonra partiyanın Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev ictimaiyyətə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib.

YAP Xətai rayon təşkilatının sədri Ramil Mirzəyev çıxış edərək ona göstərilən etimada görə təşəkkürünü bildirib, öz üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacağını deyib.

Tədbirdə akademik Vaqif Abbasov və Xətai rayon Ağsaqqallar Şurasının sədri, şəhid atası Mürvət Əsgərov da çıxış edərək bu gün Ümummilli Liderin ideyalarını uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyasının böyük gücə çevrildiyini qeyd ediblər.

YAP Nərimanov rayon təşkilatının inzibati binasında keçirilən təqdimat mərasimindən əvvəl tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin büstü önünə tər güllər düzərək xatirəsini dərin ehtiramla anıblar.

YAP Mərkəzi Aparatı rəhbərinin müavini Əhliman Tağıyev, Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgin Həbibullayev və Milli Məclisin deputatı Samir Vəliyev çıxış edərək Ulu Öndər Heydər Əliyevin qurucusu olduğu, zəngin siyasi və dövlətçilik təcrübəsinə söykənən Yeni Azərbaycan Partiyasının ölkədə ən güclü, monolit siyasi təşkilat olduğunu bildiriblər. Vurğulanıb ki, şanlı Zəfərdən sonra yaranmış yeni reallıqlar fonunda Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz parlaq gələcəyə doğru daha inamla irəliləyir.

Sonra partiyanın Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev ictimaiyyətə təqdim edilib və onun fəaliyyəti haqqında ətraflı məlumat verilib.

YAP Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev çıxış edərək təşəkkürünü bildirib, göstərilən etimadı layiqincə doğrultmağa çalışacağını vurğulayıb.

YAP Veteranlar Şurasının üzvü Zərifə Quliyeva, ərazi partiya təşkilatının sədri Ağaəli Hüseynov və Nərimanov Bələdiyyəsinin sədri Təmraz Tağıyev çıxışlarında YAP-ın Azərbaycan xalqının böyük inam və etimadını qazandığını, ümumxalq və qələbələr partiyasına çevrildiyini diqqətə çatdırıblar.

# Fransa və Niderlanda çağırış!

## COP29 çərçivəsində bu ölkələrdən ətraf mühitə ziyan vuran bütün qeyri-qanuni fəaliyyətlərin dayandırılması tələb olunub

Məlumdur ki, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu Qərb ölkələri tərəfindən törədilib. Bu baxımdan, Fransanın və Niderlandın fəal surətdə məşğul olduğu qul ticarəti insanlığın ən utancverici səhifələrindən biridir. Milyonlarla afrikalı bu ölkələrin qul siyasətinin qurbanı olub.

Ümumiyyətlə, kolonializm siyasətinin fəsadlarını müxtəlif aspektlərdən dəyərləndirmək mümkündür. Mənfi nəticələr yalnız asılı ölkələrin suverenliyinin məhdudlaşmasında, yeraltı və yerüstü sərvətlərinin talanmasında müşahidə edilmir. Fundamental insan hüquqlarının tapdanması müasir dövr müstəmləkəçiliyinin ən ağır təzahürüdür. Təzad bundan ibarətdir ki, müstəmləkəçi Qərb ölkələri demokratiyanı və insan hüquqlarının qorunmasını özlərinin fundamental prinsipləri kimi bəyan ediblər. Ancaq həmin ölkələr Afrikada, Yaxın Şərqdə, Latın Amerikasında neokolonializmi davam etdirməklə insan hüquq və azadlıqlarına, məhəl qoymurlar. Neokolonializm siyasətində Fransa ən pis nümunə ortaya qoyur. Hazırda 13 dənizaşırı ərazini müstəmləkəsi kimi idarə edən, həmçinin dünyanın müxtəlif qitələrində yerləşən keçmiş müstəmləkələrinin daxili işlərinə qarışan Fransa beynəlxalq təşkilatların və müstəqillik uğrunda mübarizə aparan xalqların uzun illərdir tələblərinə baxmayaraq, neokolonializm siyasətini davam etdirir. Bu məsələdə Niderland da Fransadan geri qalmır.

Azərbaycan bu problemlə bağlı prinsipial mövqe nümayiş etdirir və Fransa kimi ölkələrin müxtəlif xalqlara qarşı repressiv siyasətinə etiraz səsini ucaldır. Eyni zamanda, müstəmləkəçiliyə qarşı aparılan mübarizəyə siyasi və mənəvi dəstək verilir. Bakı Təşəbbüs Qrupunun yaradılması da bu məqsədə xidmət edir. Belə ki, Bakı Təşəbbüs Qrupu Qoşulmama Hərəkatının 2023-cü il iyulun 5-6-da Bakıda keçirilmiş nazirlər toplantısı çərçivəsində baş tutan tədbirin nəticəsi olaraq yaradılıb. Bütün dünyada müstəmləkəçiliyə məruz qalan xalqlara, xüsusilə Karib adaları, Cənubi Amerika, Sakit okean və Hind okeanındakı fransız müstəmləkələrinə həsr olunmuş həmin tədbir bütün maraqlı tərəflərə Fransa dövlətinin müstəmləkəçilik siyasətinin müvafiq ölkələrdə fəsadlarına dair fikir mübadiləsi aparmağa imkan verib.



Yarandığı vaxtdan Bakı Təşəbbüs Qrupu müstəmləkəçilik siyasətindən əziyyət çəkən xalqların hüquqlarının müdafiəsi üçün çoxlu sayda beynəlxalq konfrans keçirib. Bu tədbirlər həm Azərbaycanda, həm də müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda reallaşdırılıb. Belə tədbirlərdən biri də Bakıda COP29 çərçivəsində baş tutub. Bakı Təşəbbüs Qrupu (BTQ) və SAHEL Konfederasiyasını təmsil edən ASRAD təşkilatı COP29 çərçivəsində "Müstəmləkəçiliyin Afrikada investisiya perspektivlərinə mənfi təsirləri" mövzusunda tədbir keçirib. Tədbirdə Afrikada kolonial keçmişin yaratdığı dərin sosial-iqtisadi problemlər və onların qitədə investisiya imkanlarına mənfi təsiri müzakirə olunub.

Tədbirdə Fransanın Afrikadakı keçmiş müstəmləkələrindən, digər fransız dənizaşırı ərazilərindən, Niderland koloniyalarından olan nümayəndələr, xarici və yerli jurnalistlər iştirak ediblər. Çıxışlarda müstəmləkəçilikdən miras qalan qeyri-bərabərlik, resursların ədalətsiz və qanunsuz istifadəsi, qitənin inkişafını ləngidən səbəblər barədə ətraflı fikir mübadiləsi aparılıb. Həmçinin investisiya sahəsində yaranan problemlər, dayanıqlı inkişaf və kənar müdaxilə olmadan Afrikada investisiyaların perspektivləri müzakirə olunub.

Tədbirdə müstəmləkəçiliyin hazırda planetimizin üzləşdiyi dağıdıcı iqlim böhranına mənfi təsirləri xüsusi vurğulanıb. Müstəmləkəçiliyin Afrika ölkələrinin, dənizaşırı ərazilərin artıq daha tez-tez üzləşdiyi dağıdıcı iqlim hadisələrinə dərin və davamlı mənfi təsirlərinin gözardı edilməsi şiddətlə qınanılıb. Müstəmləkəçiliyin Afrika ölkələrində, eləcə də dənizaşırı ərazilərdə bütün sahələrdə, o cümlədən iqtisadiyyatda, mədəniyyətdə, siyasətdə, ətraf mühitdə dərin mənfi izlər qoyduğu qeyd edilib. Bildirilib ki, müstəmləkəçiliyin bu ölkələrdə yaratdığı sosial və siyasi nizamsızlıq, iqtisadi istismar və yoxsullaşma, yerli xalqların mədəniyyətlərinin və milli kimliyinin itirilməsi, etnik bölünmə və icmalar arasında gərginliyin yaradılması siyasəti, ətraf mühitin deqradasiyası, iqtisadi və siyasi asılılığın mirası kimi bir çox mənfi təsirlər artıq dözülməz həddə çatıb. Buna baxmayaraq, yerli xalqlar iqlim dəyişikliyinin dağıdıcı təsirləri ilə bağlı müstəqil qərarlar qəbul edə bilmirlər. Müstəmləkəçilik bu ölkələrin strukturunu dağıdıb, onları xaricdən idarə olunan sistemlə əvəzləyib. Nəticədə həmin xalqların qərar qəbuletmə səlahiyyətləri onlardan alınıb.

Çıxışlarda qeyd olunub ki, müstəmləkəçiliyin əsas məqsədi Afrika ölkələrinin və dənizaşırı ərazilərin zəngin təbii ehtiyatlarını istismar etməkdir. Müstəmləkə istismarı ətraf mühiti çirkləndirən intensiv kənd təsərrüfatı və mədənçilik sahələrində daha ağır nəticələr doğurur. Monokultura torpağı tükəndirib, bəzi ölkələrdə və ərazilərdə səhralaşmaya səbəb olub. Müstəmləkə dövründə başlayan bu ekoloji deqradasiya bu gün də kənd təsərrüfatına və dolanışıq vasitələrinə təsir edir, ərzaq təhlükəsizliyi üçün ciddi təhdid yaradır.

Tədbir iştirakçıları Fransanın və Niderlandın müstəmləkəsi altında olan ölkə və ərazilərdə ətraf mühitə ziyan vuran bütün qeyri-qanuni fəaliyyətlərin dayandırılması, yerli xalqların hüquqlarına hörmətlə yanaşılması ilə bağlı çağırış ediblər.

*Nardar BAYRAMLI*

# CAREC-in Bakı Bəyannaməsi

## İqlim Dəyişikliyi üzrə Fəaliyyət Planı tərəfdaşlar arasında koordinasiyanı gücləndirəcək

**COP29 çərçivəsində İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə təşkil edilən İqlim, İnnovasiya və Ticarət üzrə CAREC Tərəfdaşlığına həsr olunmuş Yüksək Səviyyəli Sessiya keçirilib. Asiya İnkişaf Bankının Mərkəzi və Qərbi Asiya üzrə Əməkdaşlıq və İnteqrasiya Departamentinin regional bölməsi tərəfindən keçirilən tədbirdə CAREC Proqramının Azərbaycanın inkişafına verdiyi töhfələrdən bəhs olunub. Tərəflər iqlim dəyişiklikləri ilə mübarizədə vahid yanaşma prinsipinə keçid, iqlim risklərinə qarşı təsirli hazırlıq mexanizminin qurulması, su, enerji və qida təhlükəsizliyi, aşağı karbonlu fəaliyyətin təmin edilməsi istiqamətində tərəfdaşlığın gücləndirilməsini qərara alıb. Bu təşəbbüslərin gerçəkləşməsi məqsədilə üzv olan ölkələr arasında İqlim, innovasiya və ticarət üzrə CAREC Tərəfdaşlığına dair Bakı Bəyannaməsi imzalanıb.**

### “Yaşıl enerji” koalisiyasının üzvləri

Asiya İnkişaf Bankı tərəfindən 2001-ci ildə təsis edilmiş Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı regionun və Azərbaycanın inkişafında mühüm rol oynayan platforma kimi son illərdə əhəmiyyətini və rolunu daha da artırmaqdadır. Proqrama üzv ölan ölkələrdə son illərdə ikitərəfli və çoxtərəfli əməkdaşlıq xətlərinin artan dinamikası, xüsusilə də əmttə mübadiləsi, nəqliyyat daşınmaları, investisiya axınları bu təsisatın faydalı iqtisadi ortaq mühit yaratmaq potensialını nümayiş etdirir. Azərbaycanın CAREC ölkələri ilə son 2 ildə əlaqələrində xüsusi müsbət meyillər yaranması isə ölkəmizin regional müstəvidə fəallığını artırmasına dəlalət edir. Proqramın prioritet istiqamətlərindən biri olan nəqliyyat, ticarət və energetika sahələrində Azərbaycan daha çox təşəbbüskarlığı ilə diqqət çəkir, Uzaq Asiyadan Avropaya uzanan Yeni İpək Yolunun mərkəzi qovşağı olan Orta Dəhliz ailəsində lider ölkələrdən biri kimi çıxış edir. Azərbaycan bu təsisatın bir çox ölkəsi ilə ənənəvi enerji sahəsində sıx partnyordur və “yaşıl enerji” üzrə də hazlırda birgə koalisiya qurulub.

### Azərbaycanın CAREC ölkələri ilə ticarətinin həcmi 4 milyard dollara çatıb

Yüksək Səviyyəli Sessiyada çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, proqram müxtəlif sektorlar üzrə layihələrə sərmayə qoyuluşunda dəstəkləyici rol oynayıb. Həmçinin, regionda mühüm nəqliyyat qovşağına çevrilən Azərbaycanın tranzit və logistika üzrə prosedurlarının təkmilləşdirilməsində və ticarətin rəqəmsallaşmasında CAREC-in xüsusi önəmi olub.

Azərbaycanın CAREC ölkələri ilə səmərəli əməkdaşlığı iqtisadi-ticari, investisiya dinamikasını böyüdüb. 2024-cü ilin doqquz ayı ərzində Azərbaycan ilə bu təsisata üzv olan dövlətlər arasında ticarət dövriyyəsinin həcmi 4 milyard dollara çatıb və ölkəmizin ümumi xarici ticarət balansında payı 11,5 faiz təşkil edib. Üzv ölkələrin Azərbaycana birbaşa investisiyaları isə 1,4 milyard dollara, respublikamızın birbaşa investisiyaları isə 4,2 milyard dollara çatıb.

İqlim hədəflərinə uyğun olaraq proqramda yer alan ölkələrin müasir gündəliyində karbon emissiyasını azaldan sənaye və nəqliyyat sxemlərinin yaradılması, logistika qovşaqlarının rəqəmsallaşması, ticarətin asanlaşdırılması, “yaşıl iqtisadiyyat” prinsiplərinin tətbiqi əsas yer tutur. Azərbaycan həmin prinsiplərə sadiq qalaraq CAREC alyansı ilə ticarət və investisiya əlaqələrinin gücləndirilməsi üçün səylərini davam etdirir, xüsusilə də ticarətin asanlaşdırılması, nəqliyyat-tranzit daşımalarında qarşılıqlı güzəşt rejimlərinin təbiqi yollarını nəzərdən keçirir.



### CAREC Bakı Təşəbbüsünə dəstək verir

CAREC-in iqlim hədəflərinin reallaşmasında maliyyə təminatı məsələsi də xüsusi əhəmiyyət kəsb edir ki, tərəflər bu sahədə iqlim maliyyəsinin dayanıqlılığını təmin etmək niyyətindədir. Proqrama daxil olan ölkələr iqlim maliyyəsi, investisiya və ticarət sahəsində Bakı Təşəbbüsünü (BICFIT) də dəstəklədiklərini bəyan edib. Bu sahədə Asiya İnkişaf Bankının (AİB) əsas donorlardan biri kimi rolunu artıracağı istisna deyil. Bankın prezidenti Masatsuqu Asakava bildirib ki, AİB CAREC İqlim və Davamlılıq Layihəsinə Hazırlıq Fondunda maliyyə təchizatçısı kimi fəaliyyətini artırmaq niyyətindədir. Bundan başqa, digər maliyyə institutlarının da dayanıqlı maliyyə portfelinin formalaşması üçün bu prosesə cəlb olunması təşviq edilməkdədir. Nəzərə alsaq ki, CAREC blokunda Asiya İnkişaf Bankı ilə yanaşı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Valyuta Fondu, BMT-nin İnkişaf Proqramı və Dünya Bankı da tərəfdaşdır, onda Bakı Təşəbbüsünün və Hazırlıq Fondunun prioritetlərinə çatmaq üçün geniş və güclü maliyyə arxitekturası mövcuddur.

Göründüyü kimi CAREC-in məqsəd və prioritetlərinin icrasında fəal və təşəbbüskar ölkə kimi Azərbaycanın xüsusi aktivliyi birgə hədəflərə çatmaqda mühüm rol oynayır. Nəzərə alsaq ki, CAREC Proqramının yeni strateji çərçivə sənədinin hazırlanması ilə bağlı anlaşma sazişi də 2017-ci ilin may ayında Bakıda baş tutub, onda respublikamızın qlobal sazişlərin imzalanması üçün mərkəzi zona olması təsadüfi deyil.

COP29 çərçivəsində imzalanan “İqlim, İnnovasiya və Ticarət üzrə CAREC Tərəfdaşlığına dair Bakı Bəyannaməsi” üzv ölkələr arasında yeni hədəflərin gerçəkləşməsində, o cümlədən sosial, iqtisadi və ekoloji sahələrdə təşəbbüslərin dəstəklənməsində əlaqələndirici platformanı formalaşdıracaq. Sənəd “yaşıl prinsiplər”ə çatmaqda bir sıra texniki-hüquqi proderların təkmilləşdirilməsinə, yeni fəaliyyət çərçivəsinin müəyyənləşməsinə və nəticədə birgə qarşılıqlı əlaqələrin güclənməsinə ciddi töhfə verəcək. Ticari və investisiya bloklarında daha asan rejimlərinin qurulması tərəflərin manesiz tranzitləri həyata keçirməsi, rəqəmsal mübadilələri tənzimləməsi proseslərini də yaxşılaşdıracaq. Bu isə əsas başlıca prinsiplərdən olan iqlim dəyişikliyi üzrə dialoqun təşviqinə və praktiki addımarın atılmasına imkan verəcək.

CAREC Nazirlər Konfransında İqlim Dəyişikliyi üzrə Fəaliyyət Planı təqdim olunacaq. Fəaliyyət Planı CAREC-in təşəbbüslərini şaxələndirəcək, regional iqlimə uyğunlaşma və təsirlərin azaldılması layihələrinin hazırlanmasına, həyata keçirilməsinə dəstək verəcək, tərəfdaşlar arasında koordinasiyanı gücləndirəcək.

*E.CƏFƏRLİ*

# Yaşıl Rəqəmsal Fəaliyyət...

## Yüksəksəviyyəli açılış sessiyası keçirilib

Məlum olduğu kimi, ölkəmiz növbəti mühüm tədbirə ev sahibliyi edir. COP29 ərəfəsində gündəmin əsas mövzuları sırasında yaşıl iqtisadiyyata keçid və iqlim dəyişiklikləri problemlərinin həllində yaşıl və rəqəmsal texnologiyalar, onların təsirləri, o cümlədən yaşıl iqtisadiyyatın formalaşmasında süni intellektin rolu böyük əhəmiyyət daşıyır. Bu baxımdan “yaşıl” texnologiyaların tətbiqi məsələsi ölkəmizdə ətraflı şəkildə tədqiq edilən məsələlərdən biridir. Rəqəmsal innovativ texnologiyaların tətbiqi ilə “yaşıl” iqtisadiyyatın formalaşması və inkişaf səviyyəsinin yüksəldilməsi aktuallıq kəsb edir.

Noyabrın 14-də rəqəmsal texnologiyalar sənayesində davamlılıq üzrə əməkdaşlığı gücləndirmək üçün Yaşıl Rəqəmsal Fəaliyyət trekinin yüksəksəviyyəli açılış sessiyası keçirilib. Sessiya Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN), COP29 Sədrliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) və BMT-nin Rəqəmsal Texnologiyalar Agentliyi tərəfindən təşkil olunub. Tədbirdə dünyanın bir sıra ölkələrindən dövlət və özəl sektor nümayəndələri, o cümlədən İKT sahəsi üzrə qlobal miqyasda aparıcı tərəfdaşlar iştirak ediblər.

Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Doreen Bogdan-Martin bildirib ki, Yaşıl Rəqəmsal Fəaliyyət təşəbbüsü sənayenin yaşıl keçidə necə rəhbərlik edə biləcəyinə və iqlimə davamlılığı gücləndirə biləcəyinə dair güclü bir nümunə yaradır: “Rəqəmsallaşma Günündən sonra ortaya çıxacaq Yaşıl Rəqəmsal Fəaliyyət Bəyannaməsi bizə irəliyə doğru yol göstərir. Bizə isə hazırda lazım olan məqsədlə və bərabər məsuliyyətlə idarə olunan iqlimə uyğun rəqəmsallaşmadır”.

Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iqlim dəyişikliyi ilə mübarizədə güclü vasitə olan rəqəmsallaşmanın potensialından tam yararlanmaq üçün dayanıqlı infrastruktura və ətraf mühitə təsirə üstünlük verən balanslaşdırılmış yanaşmaya ehtiyac olduğunu vurğulayıb: “Yalnız rəqəmsallaşma vasitəsilə davamlı gələcəyi təmin etmək üçün lazım olan sürət, dəqiqlik və çevikliyə nail ola bilərik”.

Müzakirələrdə texnologiya sektorunda emissiyaların azaldılmasının zəruriliyi və ekoloji həllərdə texnologiyanın rolu vurğulanıb. Sessiya rəqəmsallaşma və iqlim fəaliyyətinə dair tematik müzakirələrlə davam edib, uğurlu əməkdaşlığı nümayiş etdirib. Belə ki, il ərzində çoxtərəfli Yaşıl Rəqəmsal Fəaliyyətin əsas nəticələri və tərəqqi yenilənmələri diqqətə çatdırılıb.





Çıxış edənlər bu sessiyanın ekoloji problemlərin həllində və hamı üçün dayanıqlı gələcəyin qurulmasında rəqəmsal həllərin oynaya biləcəyi mühüm rolu vurğulayan dinamik proqramın başlanğıcı olduğunu bildiriblər. Beləliklə, COP29-da Yaşıl Rəqəmsal Fəaliyyət treki fəal iştirakı, mənalı dialoqu təşviq etmək və birgə iqlim fəaliyyətində innovativ ideyaları oyatmaq üçün nəzərdə tutulub.

Qeyd olunub ki, müzakirələr və seminarlar silsiləsi davamlılıq standartlarının əhəmiyyəti, “Xalis Sıfır” İKT sektoruna aparan yol, iqlim dəyişikliyi ilə mübarizə və erkən xəbərdarlıq sistemləri üçün süni intellektdən istifadə edilməsinə yönələcək.

Məlumat üçün bildirək ki, Yaşıl Rəqəmsal Fəaliyyət təşəbbüsü COP29 Sədrliyinin Fəaliyyət Gündəliyinə daxil olan 14 qlobal təşəbbüsdən biridir. Bu təşəbbüs tək bir hadisə deyil, həm də innovasiya və dayanıqlığa əsaslanan rəqəmsallaşmanın gələcək COP-larda prioritet olaraq qalmasını təmin edərək davamlı sürət yaratmağa çağırışdır. COP29 çərçivəsində təşəbbüsün yekun tədbiri - Yaşıl Rəqəmsal Fəaliyyət üzrə yüksəksəviyyəli dəyirmi masa COP29 çərçivəsində ilk Rəqəmsallaşma Günündə - noyabrın 16-da keçiriləcək. Tədbirdə dünyanın bir sıra ölkələrindən dövlət və özəl sektor nümayəndələri, o cümlədən İKT sahəsi üzrə qlobal miqyasda aparıcı tərəfdaşlar iştirak edəcəklər.

Dəyirmi masada bir sıra kritik mövzular, o cümlədən rəqəmsal innovasiyanın iqlim strategiyalarına inteqrasiyası, iqlim monitorinqinin rəqəmsal alətlərlə artırılması, rəqəmsal inklüzivliyin təşviqi və rəqəmsal texnologiyaların ətraf mühitə təsirlərinin azaldılması müzakirə ediləcək. Dəyirmi masanın sonunda dayanıqlı və yaşıl dünya naminə bütün maraqlı tərəflərin iştirakı ilə yekun sənəd - Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamənin qəbul edilməsi gözlənilir.

Yaşıl Rəqəmsal Fəaliyyət üzrə Bəyannamə rəqəmsal texnologiyaların iqlim dəyişikliyi ilə mübarizədəki potensialını tanımaqla yanaşı, dayanıqlı və inklüziv praktikaların təşviqinə də əhəmiyyətli bir addımdır.

*Yeganə BAYRAMOVA*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

# Strateji tərəfdaşlığın COP29 zirvəsi

## Azərbaycanla Çin şirkətləri arasında “yaşıl enerji”yə dair müqavilələr imzalanıb

**COP29 çərçivəsində Azərbaycan hökuməti ilə Çinin tanınmış enerji şirkətləri arasında “yaşıl enerji” sahəsinə dair bir neçə sənəd imzalanıb. Belə ki, Azərbaycanın Energetika Nazirliyi, “China Energy Overseas Investment Co. Ltd.” və “SOCAR Green” MMC arasında imzalanmış icra müqaviləsinə əsasən, Füzuli rayonunda 160 MVt gücündə günəş enerjisi layihəsi həyata keçiriləcək. Həmçinin, Energetika Nazirliyi ilə “China Energy Overseas Investment Co. Ltd” arasında imzalanmış Anlaşma Memondumuna əsasən, ölkəmizdə bərpaolunan enerji sahəsində əməkdaşlıq nəzərdə tutulur. Digər bir saziş “China Datang Co. Ltd” ilə Energetika Nazirliyi arasında imzalanıb ki, bu sənəd də adıçəkilən çinli investorun Azərbaycanda alternativ enerji sektorunda iştirakını təmin edəcək. Ümumilikdə, hər 3 sənəd Çin şirkətlərinin ölkəmizdə, o cümlədən azad edilmiş ərazilərdə “yaşıl enerji”yə investisiya qoyuluşlarının texniki-iqtisadi əsaslandırmasını müəyyənləşdirməklə, yeni sərmayə proqramının gerçəkləşməsini təmin edəcək. İki ölkə arasında bu sahədə əməkdaşlığı koordinasiya etmək məqsədilə bərpaolunan enerji üzrə Tədqiqat və İnkişaf Mərkəzinin yaradılması da nəzərdə tutulur.**

### Azad ərazilərdə Çinin “ağıllı enerji” texnologiyaları

Qeyd edək ki, Çin şirkətlərinin ölkəmizdə rəqəmsal və “yaşıl layihələr”də iştirakının əsası hələ bir neçə il əvvəl qoyulub. 2023-cü il iyunun 1-də Energetika Nazirliyi ilə Çinin “China Gezhouba Group Overseas Investment” şirkəti arasında Azərbaycanda 2 giqavatt gücündə bərpaolunan enerji layihələrinin həyata keçirilməsinə dair Anlaşma Memorandumu imzalanıb. Sənədə əsasən, Azərbaycanda sənaye miqyaslı günəş enerjisi, quruda və dənizdə külək enerjisi istehsalı, enerji saxlama və inteqrasiya olunmuş “ağıllı enerji” sistemlərinin qurulması, “yaşıl hidrogen” istehsalına investisiya qoyuluşu nəzərdə tutulur. Bundan başqa, Zəngilan, Füzuli, Laçın və digər ərazilərdə qurulan infrastrukturlarda, inzibati və yaşayış binalarının avadanlıqlarla təchizatında istifadə edilən “ağıllı texnologiyalar”ın, habelə enerji sistemlərinin qurulmasında zəruri olan şəbəkə sistemlərinin bir qismi Çin şirkətlərinin payına düşür. Asiyanın iqtisadi nəhəngi azad edilmiş ərazilərdə rəqəmsal avadanlıqların, günəş panellərinin, digər ləvazimatların təminatında yer alıb.

### 2024-cü ildə yeni mərhələyə yüksələn “yaşıl əməkdaşlıq”

2024-cü ildə Azərbaycan-Çin münasibətlərinin inkişafında başlanan yeni mərhələ bərpaolunan enerji sektorunda da təmasları əhatə edib. Cari il ərzində Energetika Nazirliyinin və SOCAR-ın nümayəndə heyəti ilə Çinin “Guangdong Electric Power Design İnstitute Co., Ltd., CEEC”, “TBEA CO. Ltd.”, “China Datang Corporation Ltd.” “PowerChina” şirkətlərinin əməkdaşları ilə keçirilmiş görüşlərdə bərpaolunan enerji, enerji saxlanc sistemləri, şəbəkənin gücləndirilməsi, “yaşıl enerji”nin ixracı, dənizdə külək enerjisi, yüksək gərginlikli sabit cərəyan kabellərinin təchizatı sahəsində əməkdaşlıq imkanları müzakirə edilib, ən yeni təcrübələrin öyrənilməsi barədə geniş fikir mübadiləsi aparılıb. Çin şirkətlərinin ölkəmizdə nəhəng bərpa olunan enerji sahələrində iştirakının təmin olunması barədə razılıqlar əldə olunub. “SOCAR Green” şirkəti ilə bu istiqamətdə ilkin yol xəritəsinin detalları razılaşdırılıb.

2024-cü ildə enerji sahəsində Çin şirkətləri ilə “yaşıl texnologiyalar” üzrə əməkdaşlığın intensivləşməsinin digər nümunəsi 230 meqavat gücündə “Qaradağ” Günəş Elektrik Stansiyasının inşasında və Mingəçevirdə müasirl texnologiyalar əsasında yenidən qurulan elektrik stansiyasının tikintisində Çinin “Dongfang” şirkətinin iştirakının rəsmiləşməsi olub. May ayında “China Energy Engineering Group Co.Ltd” və “China Energy International Group Co. Ltd” şirkətlərinin nümayəndələri Azərbaycana səfər edərək bərpaolunan enerji üzrə çoxistiqamətli əməkdaşlıq əlaqələrini müzakirə edib. Energetika Nazirliyi ilə “China Gezhouba Group Overseas Investment” şirkəti arasında imzalanmış 2 QVt gücündə bərpa olunan enerji layihələrinin həyata keçirilməsinə dair Anlaşma Memorandumuna əsasən, günəş elektrik stansiyalarının tikintisi nəzərdə tutulur.

### Çin Qarabağ və Şərqi Zəngəzurda potensial sərmayəçiyə çevrilir



Ötən ay Pekində keçirilən Enerji Nazirlərinin 3-cü iclasında Çinin tanınmış texnologiya şirkətlərinin ölkəmizlə bağlı investisiya planları da diqqət mərkəzində olub. Çinin “yaşıl texnologiyalar” üzrə tanınmış korporosiyalarından biri olan “China Energy International Group Co.,Ltd.” şirkətinin vitse-prezidenti Lin Siadon Azərbaycanın bərpa olunan enerji güclərinin inteqrasiyası, Xəzər dənizində külək enerjisi layihələrinin həyata keçirilməsi, enerji avadanlıqlarının istehsalının təşkili və “yaşıl enerji” dəhlizləri üzrə əməkdaşlığın artırılmasına dəstəyini ifadə edib.

Cari il oktyabrın 17-də Azərbaycanın Energetika Nazirliyi ilə Çin Xalq Respublikasının Milli Enerji Administrasiyası arasında imzalanmış Anlaşma Memorandumu da bərpaolunan enerji sahələrində əməkdaşlığın inkişafını və enerji layihələrinə investisiyaların təşviqini nəzərdə tutur. Çin investorları ilə Azərbaycanın enerji mütəxəssislərini bir araya gətirmək üçün bir ay əvvəl təsis edilmiş İşçi Qrupu da əlaqələndirici rol oyanayacaq.

Beləliklə, 2024-cü ilin ötən ayları Azərbaycan və Çin arasında alternativ enerji əməkdaşlığı olduqca məhsuldar keçib və imzalanmış açar sazişlər daha nüfuzlu şirkətlərin də bu prosesə cəlb edilməsinə, iri sərmayə planlarının icrası ilə bağlı yekun qərarların verilməsinə səbəb olub.

COP29 sammiti çərçivəsində imzalanmış sazişlər isə “yaşıl enerji” sahəsində ən əlamətdar hadisə kimi xarakterizə oluna bilər. Ələlxüsus da “China Energy Overseas Investment Co. Ltd.” Kimi investisiya nəhənginin Füzuli rayonunda 160 MVt gücündə Günəş enerjisi layihəsinə start verməsi Çinin Qarabağ və Şərqi Zəngəzurda potensial sərmayəçiyə çevrilməsi deməkdir. Bu, həmin bölgədə “yaşıl güclərin” potensialının üzə çıxarılmasında və səfərbər edilməsində digər çinli investorların da gəlişi üçün motivasiya verəcək. Bununla yanaşı, “China Energy” və SOCAR azad ərazilərdə yeni layihələrdə əməkdaşlığı müzakirə edir ki, bu bölgədə “yaşıl hidrogen” istehsalı istisna olunmur.

*E.CƏFƏRLİ*

**2025-ci il üçün gözlənilən perspektivlər**

# Sülhlə bağlı yeni mərhələ...

## Optimist mühiti formalaşdıran şərtlər - qlobal yanaşmalar dəyişir...

Qarşıdan gələn 2025-ci il istər qlobal siyasətdə, istərsə də qlobal iqtisadiyyatda mühüm yeniliklər vəd etməkdədir. Bu perspektivin ən mühüm detalı isə arxada qalan son 2-3 il ərzində qabaran-çəkilən tsikllə davam etdirilmiş münaqişələrə yeni baxışın, yeni yanaşmanın sərgilənməsidir. Bu mənada, Azərbaycan ilə Ermənistan arasındakı münasibətlərin normallaşması prosesi də istisna deyil. Bəzi antisülh kampaniyası aparan qüvvələrin və ya "iqtidarların" müdaxiləsi, təsiri və təhriki ilə uzanan prosesin yaxın dövr üçün nizamlanması gözlənilir. Hər halda verilən açıqlamalar da bunu təsdiqləyir.

### Sülh prosesində optimist komponentlər...

Təsadüfi deyil ki, sülh məsələsi artıq aylardır yenidən aktiv müzakirə predmetinə çevrilib. Oktyabrın 24-də Rusiya Federasiyasının Kazan şəhərində keçirilən XVI BRICS Sammiti əsnasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüşdə ikitərəfli sülh gündəliyinin irəli aparılması, o cümlədən sülh sazişi, sərhədlərin delimitasiyası və demarkasiyası, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilmişdi. Qərara alınmışdı ki, iki ölkənin xarici işlər nazirlərinə Sülh və Dövlətlərarası Münasibətlərin Qurulması haqqında Saziş üzərində işlərin mümkün qədər tez yekunlaşdırılması və imzalanması üçün ikitərəfli danışıqları davam etdirmək barədə təlimat verilsin. Əslində, sülhlə bağlı bütün detallar kifayət qədər açıqdır - xüsusilə, Kazan görüşünün ardından yaranan pozitiv situasiya müəyyən ümidlər yaradır. Təbii ki, proses davam etdirilir və sülh sazişinin mətni üzərində işlər görülür. COP29 qlobal iqlim sammitinin ardınca prosesin yenidən sürətlənəcəyi proqnozlaşdırılır.

Yeri gəlmişkən, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan da sülh sazişi mətninin yekun razılaşması ilə bağlı optimist danışıb - hətta sülh müqaviləsi mətninin yekun razılaşmasına çox yaxın olduqlarını deyib.

### Yeni beynəlxalq şərtlər, yeni yanaşmalar...

Əslində yaranan bu optimist mühit təsadüfi deyil - yaranan yeni siyasi reallıqlar İrəvanın da əvvəlkinə nisbətən daha "ilıq münasibət" sərgiləməsinə səbəb kimi göstərilir. Düzdür, az zaman öncəyə qədər Ermənistan sülhlə bağlı "tələsir" və kimlər tərəfindən də "tələsdirilir"di - amma artıq situasiya dəyişib. Yeni beynəlxalq şərtlər İrəvan üçün "qaçmağa yer qoymayacaq" kimi görünür. Sülh Ermənistanın sox çıxış yoluna çevrilir.

Sülhlə bağlı proqnozların bu ilin sonuna və daha real olaraq gələn ilin əvvəlinə təsadüf edəcəyinin vurğulanması da boş yerə deyil - artıq gələn ilin yanvarından bir sıra mühüm beynəlxalq şərtlərdə yeni yanaşmalar müşahidə oluna bilər. Dünənə qədər Ermənistanı manipulyasiyaya yönləndirən "tərəflər" artıq yan-yana deyil, qarşı-qarşıya dayana bilər - məsələn, İrəvanı fəal şəkildə silahlandıran Fransa üçün Qərbdə yeni siyasi mənzərə yaranır. Artıq kollektiv Qərbin özünün şərtləri dəyişir. Sülhlə bağlı Ermənistandan spekulyativ mövqe deyil, dürüst yanaşma tələb edilə bilər - Azərbaycanın bu mənada heç bir problemi yoxdur. Ortadakı sülh şərtləri və zəmin bütün detalları ilə aydındır. Yeni siyasi şərtlərdə isə münasibətlər sisteminin yeni mərhələyə qədəm qoyacağı gözlənilir...



### Sülh yolunun detalları bəllidir...

Vurğulandığı kimi, Ermənistan üçün sülh yolunun kriteriyaları bəyan edilib - sülhün bərqərar olması üçün zəmini formalaşdıracaq iki şərtdən biri və birincisi Ermənistanın manipulyasiyalardan əl çəkərək qeyri-konstruktiv davranışlarına son qoymasıdır. Azərbaycanın humanist və beynəlxalq hüquqa söykənən mövqeyinin qarşılığında rəsmi İrəvanın bir sıra məsələlərdə məqsədli şəkildə ləngiməsi prosesin effektivliyini azaldan amil kimi çıxış edir. Bu mənada, qarşıdakı ay və ya il üçün müsbət nəticələr əldə edilməsi üçün ilk növbədə Ermənistan özünün əsassız iddialarını bir kənara qoymalıdır. Azərbaycanın beynəlxalq aləm tərəfindən qəbul edilən sərhədlərinin toxunulmazlığını tanımaqla yanaşı, qondarma ərazi iddialarından rəsmən əl çəkilməlidir. Bunun üçün isə Ermənistan konstitusiyasında müvafiq dəyişikliklər edilməlidir. Məhz bundan sonra uğurlu nəticə vəd edəcək sülh danışıqları və ya sülh masası haqda danışmaq olar.

Digər məqam isə, vaxtilə "münaqişə"nin tənzimlənməsi üçün yaradılmış və artıq heç bir işə yaramayan ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı məsələnin İrəvan tərəfindən dəstəklənməsidir. Artıq "Qarabağ münaqişəsi" adlı bir mövhum mövcud olmadığı üçün, belə bir "vasitəçi mexanizmə" də ehtiyac qalmır. Azərbaycan ilə Ermənistan arasındakı münasibətlər isə qlobal gündəliyi maraqlandıran bir məsələ deyil, ikitərəfli kontekstdə həll oluna bir məsələdir - nəticə etibarı ilə, ATƏT-in Minsk qrupunun mövcudluğuna real olaraq ehtiyac duyulmur.

### İtirilmiş fürsət...

Bir daha qeyd edək ki, Azərbaycanın sülhpərvər, humanist mövqeyi bütün istiqamətlər üzrə özünü biruzə verir. Hətta Azərbaycan COP29-da iştirak üçün Ermənistana dəvət göndərməsi də bu amilin göstəricisidir. Amma Ermənistan bu tədbirə qatılmamaqla yeni sülh imkanlarını əldən vermiş olur - bu məqam, İrəvanın elan etdiyi prinsiplərlə, "sülh açıqlamaları" ilə səsləşmir. Yeri gəlmişkən, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov da açıqlamasında COP29-un inklüzivliyini təmin etmək üçün Azərbaycanın konvensiyaya üzv bütün tərəflərə olduğu kimi, Ermənistana da dəvət göndərdiyini bildirib. "Ermənistan tərəfindən də konfransda iştirakla bağlı bir neçə nümayəndənin qeydiyyatdan keçməsinə baxmayaraq, onların konfransda iştirakını müşahidə etməmişik. Ümumilikdə isə hesab edirik ki, bu da onlar üçün itirilmiş bir fürsətdir", -deyə XİN başçısı deyib.

Nəticə etibarı ilə İrəvan yeni yaranan siyasi nizamdan maksimum istifadə etməli, 2025-ci ildən sonra yaranacaq aktiv iqtisadi münasibətlər sisteminin tərəfinə çevrilməlidir. Bunun üçün isə yalnız bir şərt var - sülhə imza atmaq, gələcək üçün və bölgə üçün təhdidə çevrilməmək...

**P.İSMAYILOV**

# "Troyka" ölkələri QHT-lərinin ilk birgə forumu

## COP29 çərçivəsində keçirilən forum əməkdaşlıq üçün önəmli platformadır

**N.BAYRAMLI**

Bugünlər Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilir. Dövlətimiz bu mötəbər




tədbiri yüksək səviyyədə təşkil edib. Belə bir mötəbər tədbirə ev sahibliyi hüququnun Azərbaycana verilməsi təsadüfi deyil. İndiki dönəmdə hansısa bir ölkəni dünya birliyi üçün cəlbedici edən cəhətlərdən ən önəmlisi onun beynəlxalq imicidir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən ölkənin imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini də nəzərə alırlar. Eyni zamanda, dünya birliyinin inamı Azərbaycanın beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində qazandığı zəngin təcrübədən qaynaqlanır.

Ölkəmiz beynəlxalq birliyə iqlim çağırışları ilə bağlı müzakirələrin aparılması üçün böyük bir platforma təqdim edib. Bakıda COP29-un yüksək səviyyədə keçirilməsi müxtəlif ölkələri təmsil edən qonaqlar, rəsmi şəxslər, media nümayəndələri və ekspertlərlə yanaşı, dünya liderləri tərəfindən də qiymətləndirilir, tədbirlərin səviyyəsindən məmnunluq ifadə olunur. Yüksəksəviyyəli rəsmi nümayəndələr COP29 çərçivəsində keçirilən plenar iclaslarda, eləcə də digər tədbir və görüşlərdə, müsahibələrdə Azərbaycanın yüksək təşkilatçılıq qabiliyyətini, qonaqpərvərliyini və peşəkarlığını təqdir edir, COP29 danışıqlarının uğurla nəticələnəcəyinə ümidvarlıqlarını bildirirlər.

Digər vacib məqamlardan biri isə təcrübələrin qarşılıqlı olaraq bölüşdürülməsidir. Belə ki, COP28-ə sədrlik etmiş Birləşmiş Ərəb Əmirlikləri, COP29-a sədrlik edən Azərbaycan və COP30-a ev sahibliyi edəcək Braziliya arasında nümunəvi əməkdaşlıq platforması yaradılıb. Onlara "Troyka" ölkələri də deyilir. COP29 ərəfəsində "Troyka" ölkələrinin bir sıra tədbirləri keçirilib. Məsələn, Pre-COP29 çərçivəsində ötən ay "Troyka ölkələri"nin "1,5 dərəcə selsi missiyası üçün Yol xəritəsi" mövzusunda keçirilən tədbiri buna nümunədir.

Bakıda keçirilən COP29 çərçivəsində isə noyabrın 14-də Yaşıl zonada Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan və Braziliya qeyri-hökumət təşkilatları (QHT) iqlim maliyyəsi mövzusunda ilk dəfə birgə forum keçirib. "COP mirası - vətəndaş cəmiyyətinin iqlim maliyyəsi üzrə müzakirələri" adlı forum Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və Azərbaycan Milli QHT Forumunun təşkilatçılığı ilə baş tutub.

Agentliyin icraçı direktoru Aygün Əliyeva bildirib ki, forum COP təcrübəsini bölüşmək, QHT-ləri nəticəyönümlü iqlim maliyyəsi müzakirələrinə cəlb etmək üçün unikal müzakirə platformasıdır.

Birləşmiş Ərəb Əmirliklərinin Tolerantlıq və Sülh Uğrunda Qlobal Şurasının sədri Ahmed Mohamed Aljarvan COP28 zamanı QHT-lərin iqlim maliyyəsi ilə əlaqədar təşəbbüslərinə toxunub, vacib məqamların inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.

Braziliyanın Turizm Nazirliyinin Planlaşdırma, İnformasiya və Turizmin İnkişafı Departamentinin rəhbəri Barbara Blaudt Rangel qeyd edib ki, COP30 ölkəsi kimi Braziliya vətəndaş cəmiyyətinin iqlim məsələlərinə dair yanaşmalarını dinləməyə və nəzərə almağa çalışır.

Forum panel müzakirələrlə davam edib. Bərpa Olunan Enerjilər və Enerji Səmərəliliyi üzrə Ərəb Platformasının prezidenti Kamel Esseghairinin moderatorluğu ilə keçirilən "COP29: İqlim maliyyəsi, inklüzivlik və ətraf mühitin idarəolunması sahəsində vətəndaş cəmiyyətinin gücləndirilməsi" adlı ilk paneldə Braziliyanın İqlim Dəyişmələri Panelinin İcraçı katibi, Rio-de-Janeyro Federal Universitetinin tədqiqatçısı Andrea Souza Santos, BƏƏ-nin İqlim Şəbəkəsinin rəhbəri Raşa Bayoumi, Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü Azər Allahverənov mövzu ətrafında məruzələrlə çıxış ediblər.

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin sədri Ramil İskəndərlinin moderatorluğu ilə keçirilən "COP irsi: iqlim maliyyəsi, inklüzivlik və ətraf mühitin mühafizəsi üzrə vətəndaş cəmiyyətinin gücləndirilməsi" adlı ikinci paneldə BƏƏ-nin Sosial İnkişaf Nazirliyinin Monitorinq və qiymətləndirmə şöbəsinin rəhbəri Əhməd Xəlifə Əl Şəmsi, Dünya Resurs İnstitutunun Braziliya üzrə iqlim direktoru Karen Silvervud-Cop, Braziliyanın ətraf mühit, sağlamlıq üzrə ictimai fəalı Ajaj Rafah təqdimatlarla çıxış ediblər.

Üçlük formatında QHT-lərin ilk dəfə biraraya gəlməsi mühüm başlanğıc kimi qiymətləndirilib. Müzakirələrdə xarici ölkələrin vətəndaş cəmiyyəti təmsilçiləri COP29-un yüksək səviyyədə təşkil edilməsinə görə Azərbaycan dövlətinə minnətdarlıqlarını çatdırıblar.

# Bank-maliyyə sisteminin "yaşıl" yol xəritəsi

## "Yaşıl Taksonomiya" sənədi dayanıqlı maliyyə ekosisteminin formalaşmasını təmin edəcək

Mərkəzi Bank (MB) "Yaşıl Taksonomiya" sənədini təsdiqləyib. "2023-2026-cı illər üzrə dair Dayanıqlı Maliyyə Yol Xəritəsi"ndə müəyyən edilmiş əsas hədəflərdən biri kimi nəzərdə tutulan maliyyə taksonomiyasının hazırlanmasında dövlət qurumları, sənaye assosiasiyaları, maliyyə institutları, investorlar, beynəlxalq təşkilatlar və digər tərəfdaşlar iştirak edib, onların rəy və təklifləri nəzərə alınıb. Sənəd maliyyə-bank, sığorta və digər iqtisadi sektorlar üzrə "yaşıl fəaliyyət"in istiqamətlərini əks etdirməklə bu sahələrdə texniki təsnifat meyarlarını müəyyənləşdirir. "Yaşıl Taksonomiya" özəl sektorda biznes fəaliyyətlərinin yeni mühitə uyğun prinsiplərə uyğunlaşması, dünyada geniş vüsət alan "yaşıl iqtisadiyyat" və rəqəmsal qurucuğa dayanıqlı keçid strategiyalarının hazırlanması üçün də konsepsiya rolunu oynayacaq.

"Yaşıl Taksonomiya" ölkədə dayanıqlı maliyyə ekosisteminin formalaşdırılmasına, daxili və xarici resursların yaşıl və dayanıqlı layihələrə yönəldilməsinə, iqlim dəyişikliyindən yaranan risklərin tənzimlənməsinə, aşağı karbon iqtisadiyyatına keçid ilə bağlı önə çıxan layihələrə dəstək verilməsinə, həmçinin mal və xidmətlərin ixracı sahəsində ixtisaslaşan müəssisələrə maliyyə köməkliyinin göstərilməsinə xidmət edəcək.

### "Yaşıl istiqraz" və "yaşıl səhm"lərə keçid

Taksonomiya fəlsəfəsi COP çağırışlarından meydana gələn yaşıl prinsiplərə əsaslanır və ekoloji fayda verməklə, həm də dayanıqlı iqtisadiyyatın inkişafına kömək edir. Məhz bu çağırışlara xüsusi önəm verən MB 2024-cü il başlayandan başlıca istiqamətlərdən biri kimi ölkədə dayanıqlı maliyyə infrastrukturunun yaradılması və bank sisteminin yaşıl ekosisteminin formalaşması istiqamətində fəal çalışıb, COP29 ilində bu fəaliyyət daha da şaxələndirilib. COP29 sammiti günlərində təsdiqlənən sənədin icrasında xarici bank tərəfdaşlarının dəstək verməsi üçün də yaxşı zəminlər formalaşmış olur.

Taksonomiya baxışlarına əsasən, bank və maliyyə bazarının iştirakçıları dünyada tətbiq edilən "yaşıl maliyyə" alətlərinin ölkəmizdə tətbiqində səy və məsuliyyətlərini artıracaq. Yaxın illərdə bank sektoru fəaliyyətini daha çox "yaşıl maliyyə" təminatlarına yönəltməli olacaq. "Yaşıl maliyyə" arxitekturasının qurulması isə böyük həcmdə sərmayələr tələb edir. Hazırda dünya bank sektoru bu vəsaitləri müxtəlif alətlərlə təmin etməyə çalışır. Həmin alətlərdən biri "yaşıl istiqrazlar"dır. Azərbaycanın bank sistemi üçün də bu istiqrazların emissiyası vacib hesab edilir və bunun üçün qabaqcıl beynəlxalq təcrübə hərtərəfli nəzərdən keçirilir. "Yaşıl istiqrazlar" maliyyə sektorunda davamlılığı təşviq etmək, iqlimlə əlaqəli və ya digər növ xususi ekoloji layihələri dəstəkləmək və sosial və ətraf muhitin yaxşılaşdırılmasına töhfə vermək baxımından daha cəlbedicidir. Ekoloji və iqlim layihələrini dəstəkləmək üçün sabit gəlirli bir maliyyə aləti olan "yaşıl istiqraz" enerji səmərəliliyi, ekoloji çirklənmə ilə mübarizədə öz səmətəsini verməkdədir.

"Yaşıl maliyyə" alətlərindən biri olan "yaşıl səhm"lər də ekoloji cəhətdən təmiz texnologiyaların genişləndirilməsi və iqlim dəyişikliyinin azaldılması istiqamətində emissiya edilən səmərəli maliyyə alətidir. Beynəlxalq Maliyyə Korporasiyasının hesabatında "yaşıl səhm"lərin son 4 ildə emissiyasının 230 milyard dolları ötdüyü qeyd olunur. Hazırda Dunya Bankı "yaşıl istiqraz" və "yaşıl səhm" buraxılışında əsas maliyyə institut və emitent kimi fəallığını daha çox artırmaqdadır. Bank son 5 ildə 200 milyard dollara yaxın istiqraz emissiya edib. Bu layihələrin Azərbaycanın bank sisteminə gətirilməsi nəzərdə tutulur.



### Dünya Bankı "Yaşıl Taksonomiya"ya dəstək verəcək

"Yaşıl Taksonomiya" sənədinin hazırlanmasında Dünya Bankı (DB) Azərbaycana öz dəstəyini göstərib. Bu baxımdan DB ilə Azərbaycan arasında qarşıdakı əməkdaşlıq mərhələsində "yaşıl maliyyə" layihələrinin icrası üçün də əlverişli fürsətlər yaranacaq. Bankın ekspertləri ölkəmizdə "yaşıl maliyyə" alətlərinin tətbiqi üçün zəruri kömək təklif etməyə hazır olduğunu bəyan edib. Bu istiqamətdə cari il ərzində əməkdaşlıq çərçivəsində "yaşıl istiqrazlar" üzrə qabaqcıl ölkələrin təcrübələrinin, o cümlədən dayanıqlı "yaşıl maliyyələşmə" sahəsində müasir yanaşmaların respublikamızın maliyyə sektoruna gətirilməsi üçün müvafiq razılaşma əldə olunub.

Dünya Bankı ilə Azərbaycan arasında əməkdaşlığın yeni mərhələsini nəzərdə tutan Ölkə Tərəfdaşlıq Çərçivəsi (ÖTÇ) sənədinin də əsas prioritetlərdən biri məhz iqlim dəyişikliklərinə qarşı mübarizə, "yaşıl iqtisadiyyat" və "yaşıl maliyyə" sahəsində yeni layihələrin icrasıdır. Bankın Avropa və Mərkəzi Asiya regionu üzrə vitse-prezidenti Antonella Bassani qeyd edib ki, ölkəmizdə enerji keçidinin bərpa olunan enerji və enerji səmərəliliyi komponentlərinə Dünya Bankının dəstəyinin artırılması, COP29 tədbiri ilində Azərbaycanın yaşıl sektorlarına sərmayə qoyuluşları nəzərdən keçiriləcək və bankın donorluğu təmin olunacaq.

DB Azərbaycanda 760 MVt gücündə günəş enerjisi layihələrinin enerji sisteminə qoşulması, günəş panelləri infrastrukturunun genişləndirilməsi, "yaşıl hydrogen" istehsalı və digər bərpa olunan sahələrə investisiyaların qoyuluşunda açıq olduğunu bəyan edib. Azərbaycanda "yaşıl enerji" istehsalının inkişafı perspektivləri ilə bağlı beynəlxalq koalisiyanın təşəbbüslərini yüksək dəyərləndirən DB xarici təşkilatlarla birgə bu proqrama qoşulmaq niyyətini də istisna etmir. Belə ki, 2024-cü il martın 1-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi

### Asiya Bankı da taksonomiyaya qoşulacaq

Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 2-ci iclasında qəbul edilən "yaşıl enerji" qərarlarını dəstəkləyən əsas institutlardan biri də Dünya Bankı olub.

Dünya Bankı ilə yanaşı, bu maliyyə qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası da Azərbaycanla birgə nəzərdə tutulan layihələr çərçivəsində "yaşıl hidrogen" təşəbbüslərinə dəstək verəcək. Eləcə də, Asiya İnkişaf Bankı bərpa olunan enerji ekosisteminin və yaşıl sənaye layihələrinin icrasında donor köməyini göstərəcək, Azərbaycanın bank və maliyyə sistemi ilə əməkdaşlıq edəcək. Beləliklə, "Yaşıl Maliyyə Taksonomiyası" ölkəmizin maliyyə sisteminə "yaşıllaşdırılmasında" mühüm rol oynamaqla güclü ekosistemin qurulmasına imkan verəcək.

**ELBRUS CƏFƏRLİ**

# NATO necə maliyyələşəcək?

**İkinci Dünya müharibəsindən sonrakı reallıqlar zəminində təşəkkül tapan - 4 aprel 1949-cu ildə qurulan və son olaraq Finlandiya ilə İsveçin üzvlüyə qəbul olunması ilə sıralarında 32 ölkəni birləşdirən Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) indiki mərhələdə islahatlar zərurəti ilə üz-üzədir. Bu günlərdə alyansın maliyyələşmə mexanizminin dəyişdirilməsi yenidən gündəmə gəlib. Bu barədə NATO hərbi komitəsinin rəhbəri, admiral Rob Bauer "Newsweek" jurnalına müsahibəsində bildirib.**

## NATO-nun maliyyələşmə mexanizminin dəyişdirilməsini zərurətə çevirən şərtlər

Amerika Birləşmiş Ştatlarının (ABŞ) və alyansa üzv olan Avropa dövlətlərinin "qoruyucu çətiri" və yaxud "dəmir qalxanı" kimi də səciyyələndirilən NATO-nun maliyyələşmə mexanizmləri ilə bağlı müzakirələrin aparılması dəfələrlə təkrarlanıb. Lakin məsələ zaman-zaman gündəmə gəlsə də, belə görünür ki, hələlik optimal həll variant tapılmayıb. Əslində, nizamnamədə alyans çərçivəsində maliyyələşmə mexanizmi konkret şəkildə təsbit olunub: Hər bir üzv ölkə NATO-nun ümumi büdcəsi üçün milli ÜDM-in 2 faizi həcmində vəsait ödəməlidir. Bununla bağlı üzv ölkələr müvafiq saziş imzalayıblar. Lakin öhdəlik heç də bütün üzv dövlətlər tərəfindən yerinə yetirilmir. Ayrı-ayrı ölkələr ümumi büdcəyə müəyyənləşdirilmiş səviyyədə vəsait ayırmırlar. Eyni zamanda, öhdəliyin yerinə yetirilməməsinə görə cərimələr də nəzərdə tutulmur. Hazırda NATO daxilində ən böyük ödəyici qismində isə ABŞ çıxış edir.

Elə zaman-zaman NATO daxilində maliyyələşmə mexanizminin dəyişdirilməsinə çağırışlar da daha çox məhz bu ölkədə səslləndirilir. Daha dəqiq desək, bu tələblə Amerika Birləşmiş Ştatlarının 45-ci prezidenti olmuş və cari il noyabrın 5-də yenidən dövlət başçısı seçilən Respublikaçılar Partiyasının namizədi Donald Tramp çıxış edib. Ümumiyyətlə, Donald Tramp seçki marafonu boyunca dəfələrlə NATO ilə bağlı narahatedici fikirlər ifadə edib. Xatırlayaq: O, təhdid dolu mesajlar verirdi ki, yenidən seçilərsə, Rusiyanı NATO-ya üzvlük haqqını ödəməyən ölkələrə hücuma keçməyə təşviq edə bilər. D.Tramp təbliğat kampaniyasında ilk prezidentliyi dönəmində baş vermiş bir hadisəni yada salıb. O, tərəfdarları qarşısında çıxışında bir NATO ölkəsinin liderinin "Biz üzvlük haqqını ödəyə bilməsək və Rusiya bizə hücuma keçsə, nə edəcəksiniz?" sualına, "Sizi qorumağa gəlmərik. Mən hətta Rusiyanı istədiyini etməyə



təşviq edərdim" cavabını verdiyini deyib. Tramp dəfələrlə NATO-ya üzv ölkələri ümumi daxili məhsullarının 2 faizini müdafiyə xərcləmək vədlərini yerinə yetirməyə çağırıb. Prezidentliyi dönəmində ABŞ-ni NATO-dan çıxaracağı mesajı da ona məxsusdur.

D.Trampın NATO-nun drayveri sayılan ABŞ-nin yeni prezidenti seçilməsi alyansa üzv olan Avropa dövlətlərində ciddi təşviş doğurub. ABŞ-nin NATO-dan çıxması Avropanın müdafiəsiz qalması anlamında qəbul olunur. Təsadüfi deyildir ki, Donald Tramp yenidən prezident seçildikdən sonra Avropa Siyasi Birliyi təcili qaydada toplandı və orada qoca qitənin təhlükəsizliyinin təmin olunması məsələsi gündəliyin mərkəzində dayandı. Avropada anlayırlar ki, NATO hələlik onların əsas müdafiə çətiridir və ABŞ-siz bu çətirin altı boş qalar. Daxili mənbələr hesabına isə Avropanın ümumi təhlükəsizliyini təmin etmək mümkünsüz görünür...

Qeyd edək ki, NATO-nun hərbi strukturunun 2024-cü il üçün büdcəsi 2023-cü illə müqayisədə 12 faiz artaraq 2,03 milyard avroya, təşkilatın siyasi komponentinin büdcəsi 18,2 faiz artaraq 438,1 milyon avroya çatıb. Təşkilatın büdcəsinin üçüncü əsas komponenti sayılan, ayrı-ayrı üzv ölkələrə deyil, alyansa məxsus olan komanda və idarəetmə obyektlərinin tikintisi xərclərini özündə əks etdirən NATO Müdafiə İnvestisiya Proqramı 1,3 milyard avro təşkil edir. Bu da əvvəlki dövrlə müqayisədə 30 faiz artım deməkdir.

Beləliklə, alyans ümumilikdə 2024-cü ildə təxminən 3,768 milyard avro büdcəyə malikdir. Söhbət bir təşkilat kimi NATO strukturlarının ixtiyarında olan büdcələrdən gedir. NATO-nun hesablamalarına görə, alyansa üzv dövlətlərin ümumi hərbi xərcləri 2024-cü ildə təxminən 1,264 trilyon dollar təşkil edəcək.

Alyansın 2024-cü il üçün genişləndirilmiş büdcələri ötən il dekabrın 13-də NATO-nun səfirlər səviyyəsində planlaşdırılan iclasında təsdiqlənib. Bu büdcələr mülki və hərbi qulluqçuların maaşının ödənilməsinə sərf olunur. NATO-nun rəsmi reytinq cədvəlinə əsasən, 2024-cü il yanvarın 1-dən NATO-da yüksək səviyyəli menecerlərin maaşı sosial və digər ödənişlər nəzərə alınmadan 17,5 min dollar olacaq. Bununla belə, NATO-da maaşların səviyyəsi məmurun təmsil etdiyi ölkədən və onun müxtəlif kateqoriyalı kadrlar üçün əməkhaqqı indekslərindən də asılıdır.

## Hansı variant təklif olunur?

Təklif olunan yeni varianta əsasən, NATO-nun gələcək maliyyələşməsində ənənəvi metoddan imtina edilməsi tam realdır. Admiral Rob Bauer bildirib ki, NATO ölkələri maliyyələşmə mexanizmini dəyişdirərək hər bir üzvün ümumi daxili məhsulunun iki faizini xərcləmə öhdəliyini müəyyən edilmiş konkret məbləğlə əvəzləyə bilər.

Onun sözlərinə görə, hələlik NATO-nun vəziyyəti kökündən dəyişmək üçün vasitəsi və vaxtı yoxdur. Bununla belə, alyans üzvləri iki faizlik xərcləmə məqsədindən uzaqlaşa və konkret tapşırıqlar üçün vəsait ayıra bilərlər.

Admiral, həmçinin ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın ümumi daxili məhsulunun iki faizini ödəmə hədəfinə çatmayan NATO ölkələrini tənqid etməsini "ədalətli" adlandırıb. O, Donald Trampın Ağ evə qayıdacağından sonra ABŞ-ın alyansdan çıxması məsələsinin müzakirə olunmayacağına ümidini ifadə edərək deyib: "Vaxtilə bu məsələ aktual olsa da, artıq belə deyil".

*Mübariz FEYZİLİ*

# Taleyə qarşı peyvənd

## Pedro Kalderonun "Həyat yuxudur" dini-fəlsəfi pyesi haqqında

**Biz yuxularımızı əmələ gətirən cövhərdən yaranmışıq, bu miskin ömrümüz də yuxu haləsində keçir.**

**Vilyam Şekspirin "Fırtına" tragikomediyasından**

**əvvəli ötən sayımızda**

Kral Basilionun Poloniya taxtacını Moskoviya şahzadəsinə təhvil verməyə hazırlaşdığını bilən camaat üsyana qalxır. Xalq bir yadellinin başa keçməsini istəmir, ona görə də Sexizmundonu həbsdən azad eləyib özünə rəhbər seçir. Şahzadə xalq hərəkatının başına keçir, onun qoşunu kral tərəfdarlarına qalib gəlir. Məğlub Basilio boynunu cəllad kötüyünün üstünə qoymağa hazırlaşdığı vaxt oğlundan gözləmədiyi davranış görür: Sexizmundo sadiq təbəə, vəfalı oğul kimi atasının ayaqlarına düşüb ona baş əyir, Allahdan onun günahlarının bağışlanmasını diləyir. Qəlbində Rosauraya gizli sevgi bəsləsə də, qızın Astolfoya meylini görüb hersoqu onunla evlənməyə, qızın qarşısında günahını yumağa çağırır. Hersoq Rosauranın rəiyyət qızı olduğunu bəhanə gətirəndə Klotaldo işə qarışır, bəlli olur ki, Rosaura onun qızıdır. Bundan sonra Astolfonun qaçmağa yeri qalmır, Rosaura (əslində elə Moskva prinsi də) diləyinə çatır. Estrelya isə yeni kralın qismətidir.

Beləcə, Sexizmundo hər kəsi öz haqqına, halal qismətinə qovuşdurur. Gənc kral qəfil əxlaqi dönüşünə, mənəvi oyanışına belə izah verir ki, göz açıb özünü yenidən qaranlıq, soyuq zindanda görməkdən qorxur, yuxu kimi qısa, ötəri xoşbəxtliyi doyunca dadmaq istəyir.

***

Pyesin üç bölümü (xornadası) mənəvi təkamülün üç mərhələsini simvolizə eləyir. Birinci xornadada Sexizmundo öz əslindən-kökündən, təyinatından, məqamından xəbərsiz cahil bir məxluqdur. O, Platonun qaranlıq mağarasında üzü divara zəncirə vurulmuş, kündəyə, məngənəyə salınmış, həqiqət işığından, haqq sədasından məhrum miskin varlıqlardan biridir. Birinci səhnədə qəhrəman vəhşi heyvan dərisindən kürkə bürünüb, çün özü də bir vəhşidir. Onun çılpaq qayalar, soyuq daşlar arasında keçmiş ömrü nə ünsiyyət, nə ülfət, nə əxlaq, nə sevgi tanıyır. İyirmi yaşına qədər ulduzların hökmü altında, fələyin türmə qanunlarına uyğun yaşayıb, başqa cür yaşamağın da mümkün olduğunu bilməyib. O yaşacan onun taleyinə ulduzların hərləniși, fələyin gərdişi sərəncam verib.

İyirmi yaşa çatanda şahzadənin bəxti qəfil açılır, Sexizmundo zindandan birbaşa saraya köçürülür. Əynindəki heyvan dərisini şahzadə qiyafəsinə dəyişir. Taxt-tacın qəzəbli, kinli varisi ayağı yer tutandan sonra düşmənləriylə haqq-hesab çəkməyə girişir. Düşmənsə hər yandadır, sağ da, sol da, irəli də, geri də düşmənidir. Çəkdiyi əzablara görə Sexizmundo hər kəsi baiskar tutur, hamını suçlu bilir. Halbuki günahkar ulduzlar, çərxi-fələk özüdür - kral Basilio ölkəsini, təbəəsini qorxunc bir tiranın caynağına verməmək üçün yeganə varisini zindana atdırmışdı. Həyat səhnəsinə çıxandan sonra şahzadənin davranışı ulduzların haqlı olduğunu bir daha sübuta yetirir. Odur ki, qəzəbli, kinli şahzadə daha çox qana əl batırmamış zindana qaytarılmalı, yenidən zəncirə vurulmalıdır.

Yeri gəlmişkən: Bu süjet mənə ikinci Səfəvi şahı Təhmasibin oğlu İsmayılın başına gələnləri xatırladır. Onu da atası iyirmi il - ta dünyadan köçənə qədər Qəhqəhə qalasında (qalanın adı da simvolikdir, insan əzablarından zövq alan fələyin istehzalı gülüşünə işarə vurur) dustaq saxlatmışdı. Tərəfdarları II Şah İsmayılı taxta çıxarandan sonra böyük Xətayinin adını daşıyan nəvəsi öz doğmalarına, cəddinin dostlarına, dövlətinin dayaqlarına necə divan tutmuşdusa, elə öz doğmasının da əliylə hakimiyyətinin ikinci ilində ondan güclə-birtəhər qurtulmuşdular. Pedro Kalderon bu qəziyyədən iyirmi necə il sonra dünyaya gəlmişdi. Nə bilmək olar, bəlkə Şərqdə hökm sürən böyük bir imperiyada baş vermiş saray çevrilişlərinin sədası o zamanlar müsəlman dünyasına ruhən ən yaxın Qərb ölkəsinin paytaxtına da çatıb?..

***

İkinci dəfə zindana atılandan sonra Sexizmundo anlayır ki, həyat bir yatımlıq yuxudur, bu yuxunun şirinliyini günaha, cinayətə bulaşdırmaq haramdır. Anlayır ki, heyvanların, quşların, çayların, küləklərin azadlığı yalançı azadlıqdır, onlar təbiətin cızdığı xətdən qırağa çıxa bilməzlər. Gerçək azadlıq - düşüncə azadlığı, seçim sərbəstliyidir. Onun əxlaqi çevrilişi öz ruhunun qüdrətini, daxili azadlığını, mənəvi potensialını kəşf eləmək hesabına baş tutur. Sexizmundo azad iradəsinin gücüylə taleyinin boyunduruğundan çıxıb alın yazısını dəyişir, özünü yenidən yaradır, alnına yeni tale yazır. Fələyin, ulduzların hökmü bizim bədənimiz, yəni ehtiraslarımız, qorxularımız üzərində keçərlidir, könlümüzə, qəlbimizə İblisin əli girmir, çünki ora Allah evidir. Əgər bətnində Tanrı gücü daşıyan ruhumuzu səfərbərliyə alıb cismimizi aşa bilsək, kinimizi, nifrətimizi, tamahımızı, qorxumuzu yenə bilsək, İblisin tifağını xaraba qoymuş olarıq; onda fələyin, ulduzların bizə əsla dişi batmaz.

Kalderon deyir ki, ən böyük qələbə insan oğlunun özü üzərində qazandığı qələbədir. Özünə qalib gələn bütün dünyaya, külli kainata qalib gəlmiş sayılır. Bu, həm də yeganə gerçək, yeganə legitim qələbədir; qalan yalançı, qondarma qələbələrin aqibəti acı məğlubiyyət, ulduzların oyuncağına çevrilməkdir. Sexizmundo da yalnız özünü yenəndən sonra ulduzlu səmanın əsarətindən, fələk dustağı, şeytan nökəri olmaqdan qurtulur, səhnəyə üçüncü çıxışında həm özünün, həm özgələrin təyinatını tapır, hər kəsi ürəyinin arzusuna, gerçək qismətinə yetirir. O, stoisizm təliminin ən uca zirvələrində birində qərar tutmuş böyük Mark Avreli kimi şöhrətli bir filosof-hökmdar olacaq. Ancaq biz onun ömrünün o yarısını görməyəcəyik, onu yalnız təsəvvürümüzə gətirə bilərik...

***

İnsan oğlu taleyinin yiyəsi deyil, harada, nə vaxt, hansı mühitdə, necə bir ailədə doğulacağını əvvəlcədən seçə bilmir. Bütün bunlar fələyin atdığı zərlə həllini tapır, taleyimiz - istər adını təsadüf qoyaq, istərsə də elmi-fəlsəfi adı determinizm olan səbəb-nəticə zənciri - hər nədirsə, o məlunun əlindədir. Fələk bu həyat səhnəsində hərəyə bir rol ayırıb, xoşumuza gəlsə də, gəlməsə də, o rolu oynayırıq, oynamağa məhkumuq. İstədiyimiz rolu almaq əlimizdə deyil, fəqət rolumuzu ləyaqətlə, istedadla oynamaq, ən xırda, epizodik rola da ürək qoymaq öz əlimizdədir. Azad könül hər yerdə, hər zamanda, hər şəraitdə ilahi iradəsini işə salıb yiyəsinin taleyini dəyişə bilər.

Zatən bəşər övladının bu dünyada tək müqəddəs vəzifəsi materiyanın asılılığından bacardıqca qurtulmaq, fiziki-coğrafi reallığın çərçivələrini qıra bildikcə qırmaq, bioloji aləmin basqısından mümkün qədər qorunmaq, bir sözlə, tale-qismət adı qoyduğumuz mərəzə peyvənd tapmaqdır. Bu gün biz genlərimizin çoxdan ölüb torpağa qarışmış atababamızın canından-qanından-sümüklərindən səbəb-nəticə adlı yük qatarıyla daşıyıb gətirdiyi neçə-neçə mərəzə qalib gələ biliriksə, təbiətin çürük yerindən təsadüf yelləriylə yayılan amansız virusların kökünü kəsə biliriksə, dünənəcən bizi öldürən xəstəlikləri bir iynəylə yuxuya verə biliriksə, deməli, şeytani təsadüfün ilahi zərurətə, azadlığa bircə barmaq yer qoymayan determinizmin ruhun azad iradəsinə təslim olma prosesi uğurla gedir. Bu prosesdə, şübhəsiz, Kalderonun da şərəfli payı var.



*F.Uğurlu*

# Viktor Orban Aİ ölkələrinə çağırış edib



Macarıstanın Baş naziri Viktor Orban hesab edir ki, Avropa İttifaqı ölkələri Aİ-nin rəqabət qabiliyyətini gücləndirmək üçün Rusiyaya qarşı sanksiyalarla bağlı mövqelərinə yenidən baxmalıdır.

AZƏRTAC xəbər verir ki, Viktor Orban bu fikri cümə günü Macarıstan radiosuna müsahibəsində səsləndirib.

"Elektrik enerjisinin qiymətlərini istənilən vasitə ilə aşağı salmaq lazımdır. Bunun üçün Rusiyaya qarşı sanksiyalara yenidən baxılmalıdır. Çünki indiki sanksiya siyasəti ilə qiymətlər azalmayacaq", - deyə o vurğulayıb.

Baş nazir qeyd edib ki, elektrik enerjisinin qiymətinin artması Avropa İttifaqının rəqabət qabiliyyətinə mane olacaq. Onun sözlərinə görə, Aİ şirkətlərinin qaz və elektrik enerjisinə çəkdiyi xərclər Amerika şirkətləri ilə müqayisədə dörd dəfə çoxdur.

Qeyd edək ki, ötən həftə Avropa İttifaqı ölkələrinin dövlət və hökumət başçıları Budapeştdə keçirilən qeyri-rəsmi sammitdə Aİ-nin rəqabət qabiliyyətinin gücləndirilməsinə dair bəyannamə qəbul ediblər.

# Avropada qazın qiyməti kəskin bahalaşıb

Avropada min kubmetr qazın qiyməti 2023-cü ilin noyabrından bəri ilk dəfə olaraq 500 dolları ötüb.

AZƏRTAC xəbər verir ki, London ICE birjasının məlumatına əsasən, qaz tədarükü fyuçersləri hazırda min kubmetr üçün 509 dollar təşkil edir.



"Financial Times" analitikləri qeyd edirlər ki, Avropada qazın qiyməti Rusiyadan tədarükün kəsilə biləcəyi ilə bağlı məlumatlar fonunda yüksəlir. Avstriyanın OMV qrupu müqavilə münasibətlərinin pisləşməsi səbəbindən yanacaq idxalında mümkün fasilələr barədə xəbərdarlıq edib. Şirkət arbitraj məhkəməsində "Qazpromun"un törəmə müəssisəsinə qarşı 230 milyon avro iddianı udub.

OMV hələ may ayında bildirmişdi ki, Avropa İttifaqı məhkəməsi onu müqavilə üzrə ödənişləri dayandırmağa məcbur edərsə, bu, qaz idxalının dayandırılmasına səbəb ola bilər.

Qiymət artımına anbarlardan rekord miqdarda - sutkalıq 500 milyon kubmetr qaz götürülməsi və bundan on dəfə az yanacaq vurulması da təsir göstərir. Avropanın yeraltı anbarlarında hazırda 102,2 milyard kubmetr qaz olduğu bildirilir.

# ABŞ Şotlandiyada dəniz kəşfiyyatı təyyarələri yerləşdirir

"Rusiyanın Şimali Atlantika və Arktikadakı fəaliyyəti" ilə bağlı London və Vaşinqtonun artan narahatlığı fonunda ABŞ Hərbi Dəniz Qüvvələri "soyuq müharibə" dövründən sonra Böyük Britaniyada ilk dəfə dəniz kəşfiyyatı təyyarələri yerləşdirəcək.

AZƏRTAC xəbər verir ki, "The Times" qəzeti bu barədə Birləşmiş Krallığın Müdafiə Nazirliyinə istinadla məlumat yayıb.

Məlumata görə, "Boeing P-8A Poseidon" kəşfiyyat təyyarələri Britaniya Hərbi Hava Qüvvələrinin Şotlandiyanın şimal-şərqində yerləşən "Lossimut" aviabazasında dislokasiya olunacaq. Aviabazanın modernləşdirilməsi və yenilənməsi üçün 443 milyon dollar dəyərində 6 illik layihə artıq tamamlanıb.



Nazirlikdən bildiriblər ki, Böyük Britaniyada ABŞ-ın kəşfiyyat təyyarələrinin yerləşdirilməsi dəniz təhlükəsizliyini təmin etməyə, habelə Birləşmiş Krallığın və NATO-nun müdafiəsini möhkəmləndirməyə imkan verəcək.

Oktyabr ayında imzalanmış ikitərəfli sazişə uyğun olaraq, Şotlandiyadakı aviabaza Almaniya Hərbi Hava Qüvvələrinə məxsus "Boeing P-8A Poseidon" təyyarələrini də qəbul edəcək.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Dözümlülük nümunəsi...

## Beynəlxalq Tolerantlıq Günüdür

*Yeganə BAYRAMOVA*

Dünyada hər kəsin bir-birinə dözümlülük nümayiş etdirərək mehriban qonşular kimi yaşaması tolerantlığın məğzini təşkil edir. Tolerantlıq müxtəlif seçimlərə, inanclara, dünyagörüşünə və digər xarakterə sahib olan insanların sosial münasibətlər əsasında birgəyaşayışıdır. Bu məfhum bütün mədəni müxtəlifliklərin mövcud olduğu cəmiyyətlərdə harmoniyanı, stabilliyi və sosial həyatın davam etdiyini daha da gücləndirir.

Araşdırmaçıların qənaətinə görə, tolerantlıq anlayışı 16-17-ci əsrlərdə Qərbdə yaranıb və inkişaf edib. Əsasən dini mahiyyətli bu anlayış həmin dövrlərdə Avropada gedən məzhəblərarası münaqişələrin qarşısının alınması, dini ayrı-seçkiliyin ləğv edilməsi üçün müxtəlif dövlətlər tərəfindən ideologiya kimi dəstəklənib. Con Lok, Volter və başqaları hesab edirdilər ki, ictimai asayişi qorumaq və sülhə nail olmaq üçün tolerantlıq ideyası geniş şəkildə təbliğ olunmalıdır. Bu baxımdan tolerantlıqla bağlı bir çox elmi əsərlər yazılıb və təriflər verilib. C.Lok hesab edirdi ki, tolerantlıq insanlığın ədəb qaydasıdır. O ədəb qaydası ki, başqalarının hüquq və azadlıqlarını pozmadan yaşaya bilməkdir.

Dözümlülük ideologiyasının təbliği və təşviqi 16-cı əsrdən başlasa da, beynəlxalq ictimaiyyət tərəfindən öz hüquqi qiymətini 19-cu əsrin sonlarında tapmağa başladı. Belə ki, 1894-cü ildə qəbul edilmiş Cenevrə Konvensiyası döyüşdə iştirak etmiş bütün əsgərlərə hörmət göstərilməsini tələb edirdi. Bu yanaşma sonralar müharibə zamanı əsir düşmüş insanlara qarşı münasibətdə də tətbiq edilməyə başladı.

### Tolerantlığın yeni mərhələsi...

İkinci Dünya müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən tolerantlığın təbliği və təşviqi ilə bağlı baxışlar yeni mərhələyə qədəm qoydu. BMT və onun müvafiq qurumları tolerantlığı öz fəaliyyət istiqamətlərinin əsas prinsipi kimi müəyyən edərək universal ideyalar irəli sürdü. Beləliklə, BMT Nizamnaməsinin dördüncü hissəsində tolerantlığın insanların həyat fəlsəfəsində və yaxşı qonşuluq münasibətlərinin qurulmasında vacib olduğu göstərilirdi.

### Bəşəriyyətin bu ideyalara ehtiyacı var...

Sosial İnkişaf İndeksinin araşdırmalarına görə, bu gün dözümsüzlük özünü miqrantlara, dini və etnik azlıqlara münasibətdə daha çox göstərir. Nəticədə sivil cəmiyyətlərdə nifrət zəminində çıxışlar, soyqırımı cinayətləri, dini və etnik zəmində münaqişə ocaqlarının arealı genişlənir. Etnik, din və dil müxtəlifliyini müəyyən coğrafiyada mədəni zənginliyə, cəmiyyətdə inklüzivliyə, ümumi rifaha nail olmaq üçün tolerantlıq anlayışı fərdlər, icmalar və dövlətlər tərəfindən mənimsənilməli, təşviq və təbliğ edilməlidir. 16-cı əsrdə olduğu kimi, müasir dövrdə də bəşəriyyətin bu ideyalara böyük ehtiyacı var.



Həmrəyliyə nail olmaq, müxtəlif mədəniyyətlər arasında qarşılıqlı hörməti, anlaşmanı və dia-

### Ekstremizmə və dözümsüzlüyə "YOX"

loqu gücləndirmək məqsədilə 1995-ci ildə YUNESKO tərəfindən Bəyannamə qəbul edildi. Bu Bəyannaməyə əsasən hər il noyabrın 16-sı dünyada Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. Həmin tarixdən etibarən bütün dünya ölkələri irqçiliyə, ksenofobiyaya, zorakılığa, ekstremizmə və dözümsüzlüyə "YOX" deyir.

### Tolerantlığın Azərbaycan modeli...

Bu əlamətdar gün ölkəmizdə də qeyd edilir. Tarix boyu Azərbaycanda yaşayan bütün dinlərin və etnosların təmsilçiləri bir-birlərinin mədəni və mənəvi baxışlarına sayğı göstəriblər. Respublikamızda formalaşmış tolerantlıq və dözümlülük Azərbaycan cəmiyyətini səciyyələndirən gözəl bir ənənəyə çevrilib. Ölkə rəhbərliyi mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemlərinə maraq göstərir.

Müasir Azərbaycan dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir.

## Şənbə üçün nəzm



*Əlirza Həsrət*

### QUZEY BƏNÖVŞƏSİ BİRAZ GEC SOLUR

Sənə kim dedi ki,məndən uzaq dur,
Adın çəkiləndə gözlərim dolur.
Quzey bənövşəsi biraz gec solur,
Könlümə bənövşə dəstəsi düşüb.
Sən ayrı diyarsan,mən başqa ölkə,
Sən işıq salırsan,mən isə kölgə.
Bir qız dodağının rəsmidir bəlkə,
Hayandan bu gülün üstə su düşüb?
...Ahını içinə çəkib bu ocaq,
Bu da öz qollarım, özümə qucaq.
Kim mənə qoşulub qol qaldıracaq,
Sümüyümə hicran bəstəsi düşüb.

### DARIXAQ

Ayrılaq, necədir görək bu həsrət,
Belə yavaş-yavaş biz də darıxaq.
Uzanan yolları basım bağrıma,
Cığırda darıxaq, izdə darıxaq.
Görmədim belə vaxt, belə qərinə,
Nədir mələklərin bu qan-təri,nə?
Qoy tutum ovcumu badə yerinə,
Mənə Mişarçaydan süz də, darıxaq.
Duamı oxuyan bəlkə Şamandı,
Dilinin ucunda od var,amandı!
Bizi görən olmaz,dağlar dumandı,-
Gəl enək aşağı, düzdə darıxaq.

### YERİ VAR

Sənə də yetmədi əli könlümün,
Sovuldu gövhəri, ləli könlümün.
Daha bundan belə dəli könlümün,-
Sızlayan tütəkdə, neydə yeri var.
Nə payız fəslidir, nə yaz ayıdır,
Durnalar üz tutub hara qayıdır?
Elə ayrılıq da bir eşq payıdır,
Dərdini çəkməyə fayda yeri var.
İlk eşqin havası vurdusa başa,
Ürəkdə hər sevda olar tamaşa.
Deyirlər, məhəbbət baxmayır yaşa,
Yalandır, hər yaşın qayda yeri var.

### AY DİLİMİN UCUNDAKI SÖZ, YAŞA

Kirpiklərin nə gözəl xumarlanıb,
Ay nə gözəl öyrəşibdir göz yaşa.
Başın üstə çətir tutum ahımı,
Göz yaşına sən də belə döz, yaşa.
Dağ payımdır o vüqar, o əzm ki,
Hər yoxuşda çiçəklədi izim ki.
Bundan belə ayrılıqdır bizimki,
Bu sevdadan ümidini üz, yaşa.
Dan yerində özümə bir ev quram,
Hər gün durub, Günəşə də baş vuram.
Məni elə götürübsən, uçuram,-
Ay dilimin ucundakı söz, yaşa!

### GƏLİŞİN KÖVRƏLTDİ MƏNİ AY PAYIZ

Söz qoşub bir qərib ozan ömrümə,
Xatirə içində azan ömrümə.
Yaman bənzəyirsən xəzan ömrümə,
Gəlişin kövrəltdi məni ay payız.
Nə zirvə payıdır,nə dağ qarıdır,
Hayandan baxasan,ömür yarıdır.
Yaşanmış günlərin naxışlarıdır,
Pərişan saçımın dəni, ay payız.
Budaqda son yarpaq eləyir qübar,
Köçür durnalar da bax qatar-qatar.
Köksünə bayraqtək basıbdı dağlar,
Sevdiyim dumanı, çəni ay payız.

### SAMOVAR TÜSTÜSÜ

Samovar tüstüsü tutub gözünü,
Düşüb ortalığa çayçı oynayır.
Gördüm dodaq büzür nimdaş ömrümə,
Dərzinin əlində qayçı oynayır.
Qoy verim özümü ocaq hisinə,
Bəlkə duman tutan dağlar isinə.
Ovçu bərəsində güllə səsinə,-
Qərib durnaların köçü oynayır.
Buludlar gözünü sıxdıqca Yerə,
Bir payız nəğməsi oxuyur hərə.
Qonşu sığal çəkir yun əlçimlərə,
Cəhrə qəşş eləyib, düyçə oynayır.

### DÖYÜR SON ŞƏRQİYLƏ QU, QAPILARI

Yenə dağ çayları gəlib ilhama,
Nə arxa göz elə, nə selə qol aç.
Burda mən körpüdən atım özümü,
Sən selin içində özünə yol aç.
Götürüb başına su qapıları,
Döyür son nəğməylə Qu, qapıları.
Açarsız, kilidsiz bu qapıları,-
Yalandan bağlayım, sən haqdan gəl aç.
Ovcuma nə gözəl gül şehi damdı,
Bu eşq dan yerindən bizə ənamdı.
Dağlara güvənmə, dağlar dumandı,
Nə quldan üz döndər, nə şaha əl aç.

### BU NƏ GÖZƏL DARIXMAQDIR, İLAHİ...

Sinəm çalın-çarpaz dağdır, ilahi,
Dağ neyləsin, yol uzaqdır, ilahi.
Bu nə gözəl darıxmaqdır, ilahi,
Darıxmaqdan tel-tel olub ürəyim.
Alın yazım islanıbdır tərimdən,
Xəbər-ətər yox nazənin pərimdən.
Su da içmir quruyan gözlərimdən,
Qırov tutmuş gültək solub ürəyim.
O insafsız yoluma kaş çıxmasın,
Yadımdan da yavaş-yavaş çıxmasın.
Gözlərini elə sıx, yaş çıxmasın,
Deməsinlər, niyə dolub ürəyin?!

## İdman

# Musa Qurbanlı: İnanıram ki, Estoniya ilə matçda yaxşı oyun göstərəcəyik




İnanıram ki, yaxşı oyun göstərəcəyik. "Report"un Şimal-qərb bürosunun məlumatına görə, bunu Qəbələdə keçirilən mətbuat konfransında Azərbaycan millisinin üzvü Musa Qurbanlı deyib.

22 yaşlı hücumçu UEFA Millətlər Liqasında sabah Estoniya ilə keçiriləcək oyuna qələbə üçün çıxacaqlarını bildirib:

"Artıq 5 gündür ki, Qəbələdəyik. Hər gün məşqlərimiz olur. Estoniya ilə qarşılaşma bizim üçün çox vacibdir. Yaxşı nəticə qazanmaq üçün əlimizdən gələni edəcəyik. Komandada əhval-ruhiyyə yaxşıdır. Məqsədimiz sabahkı oyunda qələbə qazanmaqdır. Açığı, rəqibin heyətində hansı futbolçuların yer alması mənim üçün o qədər də maraqlı deyil, öz oyunumuza fikir verməliyik".

M.Qurbanlı cari mövsümdə qol hesabını aça bilməməsi barədə sualı cavablandırıb:

"Mövsümün əvvəlində zədə səbəbindən əməliyyat olundum. Oynamağa yeni başlamışam. Çalışıram ki, əvvəlki formamı bərpa edim. Bunu edəndən sonra hər şey yaxşı olacaq".

O, karyerasının İsveçdə istənilən kimi alınmamasına belə reaksiya verib:

"Avropaya gedərkən məndən gözləntilər böyük idi. Amma təəssüf ki, karyeram İsveçdə istədiyim kimi alınmadı. Təbii ki, bunun mənə mənfi təsiri oldu. Halbuki gənc azərbaycanlı futbolçu olaraq özümün də gözləntilərim yüksək idi. Amma bu çətinliklər artıq arxada qalıb. Fikrimcə, çətinliklər olmasa, böyük nailiyyətlər də olmaz. Bundan yaxşı mənada dərs çıxarmalıyam. Hələ 22 yaşım var və karyeram qarşıdadır".

Gənc forvard Fernandu Santuşun millidəki fəaliyyətinə toxunub:

"Hər məşqçinin öz oyun fəlsəfəsi var. Fernandu Santuş böyük məşqçisir, nəticələri də göz qabağındadır. Hər bir futbolçu milli komandaya can atır, mən də həmçinin. Bu mənim onun rəhbərliyi altında ilk təlim-məşq toplanışımdır. Biz futbolçular ilk öncə onun oyun fəlsəfəsini mənimsəməli, buna uyğunlaşmalı və meydanda tətbiq etməliyik. Bunu bacaracağımız təqdirdə, inşallah, nəticələr yaxşı olacaq".

Qeyd edək ki, Azərbaycan milli komandası C Liqasının I qrupunda sabah Qəbələ şəhər stadionunda Estoniya yığması ilə qarşılaşacaq. Oyun saat 18:00-da başlayacaq.

# Arıqlamaq eşqi ölüm gətirir...

Televiziya kanallarının əksəriyyətində, qadın proqramlarında, reklam çarxlarında arıqlamaq üçün çoxsaylı vasitələr təklif edilir. Qadınların çoxu arıqlamaq arzusundadır və əksəriyyəti bunun üçün dəridən-qabıqdan çıxır. Maraqlısı budur ki, 55-60 kilo çəkisi olan da arıqlamaq istəyir, 80-90 kilo olanlar da. Lakin çox vaxt bu istək əsrimizin ən böyük problemlərindən biri ilə - anoreksiya ilə nəticələnir.

Anoreksiya anormal dərəcədə az bədən çəkisi əlaməti olan ciddi yemək pozğunluğudur. Sadə dildə desək, anoreksiya insan sağlamlığı üçün təhlükəli olan arıqlamaq metodudur. Anoreksiya pozğunluğu olan insanlar incə qalmaq mövzusunda olduqca həssasdır və hamısı normal çəkilərindən aşağıdırlar. Anoreksiya nevrozuna əsasən, 12-20 yaşlı gənc qızlarda rast gəlinir. Anoreksiya olan insanların 90 faizi qadınlardır. Cəmiyyətdə ümumi görülmə nisbəti 1-2 faizdir.

### Canlı skeletlər həyatdan küsür...

Zamanla itirilən çəki elə həddə çatır ki, insan sümüklərinin üzərində nazik dəri ilə qalır, piy qatı və əzələlər yox olur. 1.60 sm boyu olan gənc qız 20-25 kiloyadək arıqlayır. Yeriməkdə, nəfəs almaqda problemlər yaşayan bu insanlar evə məhkum olurlar. Getdikcə yeməyə nifrət hissi gücsüzlüklə əvəz olur, əvvəllər yemək istəməməsi və özünü şüurlu şəkildə arıqlatması ölümə belə səbəb ola bilir.

Anoreksiyalı insanlar getdikcə içinə qapanır, aqressiv və kobud olur, sosial həyatı olmur. Əvvəllər arıqlığından zövq alan bu insanlar sonralar öz bədəninə baxdıqca narahat olmağa başlayır, amma artıq psixoloji cəhətdən anoreksiya onun damarlarına işləyib, yeməyə qarşı aqressiya yaradıb. Özündəki problemin fərqində olan bəzi anoreksiyalı insanlar doğmalarını çox yedirməkdə maraqlı olurlar.




### Anoreksiya necə yaranır?

Əslində mütəxəssislər deyir ki, anoreksiya sadəcə yemək və çəki ilə bağlı problem olmaqla bərabər həyat tərzi, qəzəb, narahatlıq hisslərinin bütünləşərək təzahür etməsidir. Şəxsi həyatını öz nəzarətində saxlamaq istəyi insanların anoreksiya xəstəliyinə tutulmasına təkan verir.

Aparılan ən son araşdırmalara görə, anoreksiya xəstəliyinin yaranmasında genetik və hormonal faktorlar da önəmli rola malikdir. Amerikada hədsiz piylənmə faizi bu ölkənin səhiyyə qurumunu ölkənin arıq olan çox az qismini ideal bədən quruluşu olan qisim kimi təqdim etməyə məcbur edir. Buna görə də yeniyetmə nəsil örnək göstərilən qismə oxşamağa çalışır, yeməyi dayandırır, artıq çəkidən qorxur. Dünya ölkələrinin demək olar ki, əksəriyyətində arıqlığı ideal quruluş kimi göstərən telekanallar insanları anoreksiyaya təhrik edir.

### "Öz Bədənini Sevmə Günü"

Yeri gəlmişkən, 16 noyabr - Beynəlxalq Anoreksiya ilə Mübarizə Günüdür. Bu gün həm də "Pəhrizsiz Gün" müxtəlif formalarına və piy yığıntılarına baxmayaraq öz bədənini olduğu kimi qəbul etmə günü kimi də qəbul edilir. Eyni zamanda, bu gün bədən çəkisindən asılı olmayaraq, sağlam həyat tərzi və xüsusilə anoreksiyaya bağlı pəhrizlərin qarşısının alınmasının təbliği günü olaraq da qeyd edilir.

İlk dəfə bu gün 1992-ci ildə Böyük Britaniyada qeyd olunub. Sonralar feminist təşkilatlar tərəfindən ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, Hindistan, İsrail, Danimarka və Braziliya kimi dünyanın bir sıra müxtəlif ölkələrində qeyd olunmağa başlayıb. 1998-ci ildən etibarən Ölçülərin Qəbul Edilməsi Beynəlxalq Assosiasiyası kimi bir sıra sağlamlıq uğrunda mübarizə aparan bir çox təşkilatlar bu cür tədbirlərin sponsorluq etməyə başlayıblar.

Beynəlxalq Ölçülərin Qəbul Edilməsi Assosiasiyası bu günün 25 apreldə qeyd olunmasını qəbul edib. Avropanın Qadın İşləri üzrə Milli Assosiasiyası isə hər il 16 noyabrı "Öz Bədənini Sevmə Günü" kimi qeyd edir. Bu tarixlərin əsas məqsədi "süni, qeyri-adi qadın gözəlliyi standartlarının" insanlar arasında təbliğ olunmasının qarşısını almaqdır.

*Yeganə BAYRAMOVA*


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4809**
**Sifariş: 2583**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli